AZƏRBAYCAN RESPUBLİKASI

“GƏLƏCƏYİN KİTABXANASI”
İCTİMAİ BİRLİYİ

*ISSN (ISSN-L): 2959-1694*
*ISSN (Online): 2959-1708*

DOI 10.5281/zenodo.16967406

# KİTABXANA.AZ

## ELMİ-NƏZƏRİ VƏ TƏCRÜBİ JURNAL

*Jurnal 2008-ci ildən nəşr olunur.*
*İllik dövriyyəsi ildə iki dəfədir (aprel-oktyabr).*

**№1(40) * Aprel**

**Seriyanın istiqamətləri:**
- Tarix elmi
- Humanitar və sosial elmlər tarixi
- Kitabxana işinin tarixi
- İnformasiya və sənəd menecmenti
- Kitabşünaslıq və nəşriyyat işinin tarixi

**Indexed in**

OpenAIRE

**Bakı – 2024**

**Təsisçi və baş redaktor:** **Şəfəq İSLAMOVA**
tarix üzrə fəlsəfə doktoru

**Redaktor:** **Eldəniz MƏMMƏDOV**
tarix üzrə fəlsəfə doktoru

**Redaksiya heyəti:**
**Xəlil İSMAYILOV**, tarix elmlər doktoru, professor
**İkram AĞASİYEV,** tarix elmlər doktoru, professor
**İlqar NİFTƏLİYEV,** tarix elmlər doktoru, dosent
**Cəbi BƏHRAMOV,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevda XƏLƏFOVA,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Pərviz KAZIMİ,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Tahirə ALLAHYAROVA,** fəlsəfə elmlər doktoru, professor
**Rəsmiyyə ABDULLAYEVA**, iqtisad elmlər doktoru, dosent
**Ələmdar BAYRAMOV,** filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elçin ƏHMƏDOV,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Knyaz ASLAN,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Hasan KESEROĞLU,** İnformasiya və sənəd menecmenti professoru (Kastamonu Universiteti, Türkiyə)
**Gülər DƏMİR,** İnformasiya və sənəd menecmenti dosenti (Kastamonu Universiteti, Türkiyə)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə **№ 2492**. Qeydiyyat tarixi **16.01.2008**.

---

**Redaksiyanın ünvanı:** AZ 1096, Bakı şəhəri, K.Balakişiyev küçəsi 43/15
**Telefonlar:** (+994 12) 323 49 39; (+994 50) 558 98 59; (+994 77) 742 35 42
**E-mail:** shafaq.ace@gmail.com
Jurnal **"Füyuzat MMC"** Nəşriyyat və Poliqrafiya Mərkəzində nəşr olunur.

**© "Gələcəyin kitabxanası" İctimai Birliyi, 2024**
**© Kitabxana.az, 2024**

**REPUBLIC OF AZERBAIJAN**
**АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА**

**“THE LIBRARY OF FUTURE” PUBLIC UNION**

**«БИБЛИОТЕКА БУДУЩЕГО» ОБЩЕСТВЕННОЕ ОБЪЕДИНЕНИЕ**

***ISSN (ISSN-L): 2959-1694***
***ISSN (Online): 2959-1708***

# KİTABXANA.AZ

**SCIENTIFIC - THEORETICAL AND PRACTICAL JOURNAL**

The journal has been published since 2008. Annual turnover is twice a year (april-october).

# KİTABXANA.AZ

**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ**

Журнал издается с 2008 года. Годовой оборот два раза в год (апрель-октябрь).

**April * №1(40) * Апрель**

**Series directions:**

- History science
- History of humanities and social sciences
- History of librarianship
- Information and document management
- History of bibliology and publishing

**Направления серии:**

- Историческая наука
- История гуманитарных и социальных наук
- История библиотечного дела
- Информационный и документный менеджмент
- История книговедения и издательского дела

**Baku – 2024**

**Баку - 2024**

**FOUNDER AND EDITOR-IN-CHIEF**:
**Shafag ISLAMOVA**
PhD in history

**Editor:**
**Eldaniz MAMMADOV**
PhD in history

## Editorial staff:

**Khalil ISMAILOV**, doctor of science in history, professor
**Ikram AGHASIYEV**, doctor of science in history, professor
**İlqar NIFTALIYEV,** doctor of science in history, docent
**Jabi BAHRAMOV**, PhD in history, docent
**Sevda KHALAFOVA**, PhD in history, docent
**Parviz KAZIMI**, PhD in history, docent
**Tahira ALLAHYAROVA**, doctor of science in Philosophy, professor
**Rasmiya ABDULLAYEVA,** doctor of economy sciences, docent
**Alamdar BAYRAMOV**, PhD in philology, docent
**Elchin AHMEDOV**, PhD in pedagogy, docent
**Knyaz ASLAN**, PhD in pedagogy, docent
**Hasan KESEROGLU,** Professor of Information and Document Management (Kastamonu University, Turkey)
**Guler DEMİR,** Docent of Information and Document Management (Kastamonu University, Turkey)

**УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:**
**Шафаг ИСЛАМОВА**
доктор философии по истории

**РЕДАКТОР:**
**Эльданиз МАМЕДОВ**
доктор философии по истории

## Редакционная коллегия:

**Халил ИСМАИЛОВ,** доктор исторических наук, профессор
**Икрам АГАСИЕВ**, доктор исторических наук, профессор
**Ильгар Нифталиев,** доктор исторических наук, доцент
**Джаби БАХРАМОВ**, доктор философии по истории, доцент
**Севда ХАЛАФОВА**, доктор философии по истории, доцент
**Парвиз КАЗИМИ**, доктор философии по истории, доцент
**Тахира АЛЛАХЯРОВА,** доктор философских наук, профессор
**Расмия АБДУЛЛАЕВА,** доктор эклномических наук, доцент
**Аламдар БАЙРАМОВ**, доктор философии по филологии, доцент
**Эльчин АХМЕДОВ,** доктор философии по педагогике, доцент
**Князь АСЛАН,** доктор философии по педагогике, доцент
**Хасан КЕСЕРОГЛУ**, профессор менеджмента информации и документа (Университет Кастамону, Турция)
**Гюльер Демир**, доцент менеджмента информации и документа (Университет Кастамону, Турция)

The journal is registered with the Ministry of Justice of the Republic of Azerbaijan. Certificate **No. 2492**. Registration date **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Editorial address:** AZ1096, Baku city, K.Balakishiyev street 43/15
**Phones:** (+994 12) 323 49 39; (+994 50) 558 98 59; (+994 77) 742 35 42
**Email:** shafaq.ace@gmail.com
The magazine is published in the Publishing and Printing Center “Fuyuzat LLC”.

Журнал зарегистрирован в Министерстве Юстиции Азербайджанской Республики. Свидетельство **№ 2492.** Дата регистрации **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Адрес редакции:** AZ1096, город Баку, улица К.Балакишиева 43/15
**Телефоны:** (+994 12) 323 49 39; (+994 50) 558 98 59; (+994 77) 742 35 42
**Электронная почта:** shafaq.ace@gmail.com
Журнал издается в Издательско-полиграфическом центре «Фуюзат ООО».

**© Public Union “The Library of Future”**
**© Kitabxana.az, 2024**

**© Общественное объединение «Библиотека будущего»**
**© Kitabxana.az, 2024**

KİTABXANA.AZ, 2024, aprel, №1(40), 5-18

KİTABXANA İŞİNİN TARİXİ
HISTORY OF LIBRARIANSHIP
*ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА*

UOT/UDC/УДК *027:338.26*

DOI 10.5281/zenodo.16954090

**Şəfəq İsrafil qızı İslamova**
*Azərbaycan Respublikası ETN*
*İqtisadiyyat İnstitutunun kitabxana*
*müdiri, tarix üzrə fəlsəfə doktoru*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# XARİCİ İCTİMAİ KİTABXANALARIN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ROLU VƏ TƏSİRİ

***Xülasə:*** *Məqalədə xaricdəki ictimai kitabxanaların sosial-iqtisadi rolu, cəmiyyətə müxtəlif aspektlərdə təsiri təhlil olunur. Məqalədə kitabxanaların yalnız informasiya mərkəzləri olmaqla məhdudlaşmadığı, həm də yerli icmalara bilik və resurs təmin etməklə sosial bərabərliyə və iqtisadi imkanların artmasına töhfə verdiyi vurğulanır. Bundan əlavə məqalədə ictimai kitabxanaların sosial əlaqələri gücləndirməsi, texnoloji bilikləri yayması, təhsil alanlara təlim və resurslar təqdim edərək əmək bazarında iqtisadi inkişafa necə dəstək verdiyi göstərilir.*

*Beləliklə, müxtəsər olaraq, məqalədə ictimai kitabxanaların sosial və iqtisadi təsirləri hərtərəfli araşdırılaraq cəmiyyət üçün olan faydalarından bəhs edilir.*

***Açar sözlər****: Elm, ictimai kitabxana, sosial-iqtisadi inkişaf, kitabxana işi, kitabxana xidməti, təhsil.*

## GİRİŞ

İctimai kitabxanalar yalnız kitab və informasiya resurslarının saxlanıldığı yerlər olmaqla məhdudlaşmır, onlar xaricdə geniş sosial-iqtisadi təsirləri olan mərkəzlər kimi fəaliyyət göstərirlər. Bu kitabxanalar təhsil, sosial əlaqələrin inkişafı, mədəniyyətin qorunması və iqtisadi artımın dəstəklənməsi baxımından əhəmiyyətli rol oynayır. Xarici ölkələrdə ictimai kitabxanalar yerli icmaların təhsil səviyyəsini artırmağa, texnologiyaya çıxış imkanlarını genişləndirməyə, iş axtaranlara resurs və təlim verməyə və

iqtisadi biliklərin yayılmasına kömək edir. Kitabxanalar həmçinin, sosial məkan olaraq, müxtəlif qruplardan insanları bir araya gətirir, ictimaiyyətin məlumatlılığını artırır və vətəndaş cəmiyyətinin formalaşmasına dəstək verir.

Kitabxanaların sosial-iqtisadi təsirləri ölkədən-ölkəyə fərqlənməklə yanaşı, ümumi olaraq ictimai resurslara çıxışı təmin etməklə sosial bərabərsizliyi azaltmağa və iqtisadi imkanları genişləndirməyə kömək edir. Müasir dövrdə kitabxanalar rəqəmsal xidmətlər və proqramlarla da icmalara yeni imkanlar təqdim edir. Bu isə texnoloji dəyişikliklərə uyğunlaşmağı asanlaşdırır. Beləliklə, ictimai kitabxanalar bilik, mədəniyyət və sosial inteqrasiyanı inkişaf etdirərək həm sosial, həm də iqtisadi tərəqqiyə mühüm töhfə verir. Xaricdə fəaliyyət göstərən bir çox məşhur ictimai və milli kitabxanalar var ki, bunlar həm zəngin resurslara, həm də tarixi əhəmiyyətə malikdir *(Əhmədov, 2015)*. İctimai kitabxanalar yalnız məlumat bazaları kimi deyil, həm də turistlər və tədqiqatçılar üçün cəlbedici yerlər olaraq xidmət göstərir.

## MÜZAKİRƏ

### *Xaricdəki ictimai kitabxanalar: xidmətlər, innovasiyalar və təsirlər*

Dünyanın ən böyük kitabxanalarından biri olan Britaniya Kitabxanası **(ing. *British Library*)** və yaxud Britaniya Milli Kitabxanası 170 milyondan çox sənəd fonduna (kitab, qəzet, jurnal, nadir əlyazmalar, xəritələr və s.) malikdir. London və Yorkşirdə yerləşən bu kitabxana böyük həcmli informasiya resurslarına, o cümlədən əlyazmaları, tarixi sənədləri, elmi araşdırmaları və nadir materialları özündə saxlayır, beynəlxalq səviyyədə bilik mərkəzi kimi fəaliyyət göstərir, tədqiqat və elmi işləri dəstəkləyir və geniş rəqəmsal xidmətlər təklif etməklə dünya miqyasında istifadəçilərinə töhfə verir (*Aabo, 2005)*.

Kitabxana rəqəmsallaşma proqramı vasitəsilə çoxsaylı nadir kitabları, sənədləri və əlyazmaları onlayn mühitdə əlçatan edir. Britaniya Kitabxanası, mədəniyyət və bilik mənbəyi olaraq, beynəlxalq cəmiyyəti tarixi sənədlərlə təmin etməklə mədəni irsin qorunmasına töhfə verir. Bu resurslar dünya üzrə tədqiqatçılara, tələbələrə və mədəniyyət həvəskarlarına tarixi məlumatlara, əlyazmalara və nadir materiallara çatmağa imkan yaradır. Bu isə yalnız akademik dairələr üçün deyil, həm də geniş ictimaiyyət üçün böyük sosial əhəmiyyət kəsb edir.

Britaniya Kitabxanası yalnız bilik mərkəzi olmaqla kifayətlənmir, həm də iqtisadiyyata əhəmiyyətli bir təsir göstərir. Bu əsasən kitabxananın rəqəmsal xidmətləri, tədqiqat resursları və təlim proqramları vasitəsilə həyata keçirilir. Kitabxananın "Business & IP Centre" adlı şöbəsi kiçik və

orta biznes nümayəndələrinə, sahibkarlara və yenilikçilərə xüsusi təlimlər, biznes bilikləri və patent məlumatları təklif edir. Bu mərkəz təkcə Böyük Britaniyada deyil, digər ölkələrdən olan sahibkar və investorlar üçün də resurs rolunu oynayır və bu yolla qlobal iqtisadi əlaqələrin qurulmasına töhfə verir.

Mədəniyyətlərarası əlaqələrin inkişafına dəstək verən bu kitabxana müxtəlif ölkələrlə əməkdaşlıq edir, beynəlxalq sərgilər, mübadilə proqramları və mədəni tədbirlər təşkil edir. Bu da öz növbəsində, beynəlxalq mədəni diplomatiya və mədəniyyətlərarası əməkdaşlığın möhkəmlənməsinə təkan verir.

Beləliklə, Britaniya Kitabxanası, yalnız Böyük Britaniya üçün deyil, həm də qlobal cəmiyyət üçün əhəmiyyətli bir mədəni və sosial resurs olaraq xarakterizə edilir. Kitabxana dünyanın müxtəlif yerlərindən olan oxucular üçün açıq rəqəmsal məzmun təmin edir ki, bu da biliklərin sərhədsiz yayılmasını dəstəkləyir. Kitabxananın onlayn arxivləri, xüsusi tədqiqat kolleksiyaları və rəqəmsal kitab resursları qlobal səviyyədə mütaliəyə və elmi araşdırmalara çıxışı təmin edir.

**Konqres Kitabxanası (ing. *Library of Congress*).** Konqres kitabxanası ABŞ-ın Milli Kitabxanası və dünyanın ən böyük kitabxanaların-dan biridir. 1800-cü ildə yaradılan bu kitabxana Vaşinqton, D.C.-də yerləşir və ABŞ Konqresi üçün əsas informasiya və tədqiqat mərkəzi olaraq fəaliyyət göstərir. Konqres Kitabxanasının kolleksiyasında 170 milyondan çox material mövcuddur ki, bunlara kitablar, əlyazmalar, xəritələr, şəkillər, qeydlər və rəqəmsal resurslar daxildir. Onun kolleksiyasında rəqəmsal formatda kitablar, əlyazmalar, xəritələr və multimedia materialları mövcud-dur *(Əhmədov, 2015)*.

Kitabxana tədqiqatçılar, alimlər və ümumi ictimaiyyət üçün geniş resurslar təqdim edir. Müxtəlif dillərdə zəngin kolleksiyalara malik olan bu kitabxana, həmçinin mədəni irsin qorunması, elmi araşdırmaların dəstəklənməsi və rəqəmsal biliklərin yayılması sahəsində qlobal rol oynayır. Bütün dünyadan tədqiqatçılar buradan yararlanaraq onlayn xidmətlərdən istifadə edə bilirlər.

**Fransa Milli Kitabxanası (fr. *Bibliothèque nationale de France*).** Fransanın Milli kitabxanası olmaqla yanaşı, dünyanın ən qədim və ən böyük kitabxanalarından bir sayılır. 1368-ci ildə kral V Çarlz tərəfindən yaradılan bu kitabxana sonrakı əsrlərdə genişlənərək, Fransa mədəni irsinin qorun-masında və təbliğində əvəzsiz rol oynayan bir quruma çevrilmişdir. Hazırda Parisdə yerləşən bu kitaxana bir neçə filialı ilə geniş oxucu auditoriyasına xidmət edir.

Kitabxananın kolleksiyası olduqca zəngindir: burada 40 milyondan çox kitab, əlyazma, xəritə, rəsmi sənəd, fotoşəkil, incəsənət əsərləri və sikkə qorunur. Kitabxana rəqəmsal mənbələrə böyük önəm verir və milyonlarla sənədi rəqəmsallaşdıraraq "Gallica" adlı onlayn platformasında istifadəçilərə təqdim edir.

Fransa Milli Kitabxanası (FMK) tədqiqatçılar, tələbələr və ictimaiyyət üçün geniş məlumat bazası təqdim etməklə yanaşı, həmçinin sərgilər, seminarlar və təlimlər də təşkil edir. FMK mədəni irsin qorunmasına və biliklərin yayılmasına böyük töhfə verir və beynəlxalq səviyyədə kitabxanalarla əməkdaşlıq edərək elmi və mədəni əlaqələrin inkişafına dəstək olur.

**Nyu-York İctimai Kitabxanası (ing. *New York Public Library*).** ABŞ-da, Nyu-York şəhərində yerləşən və dünyanın ən böyük ictimai kitabxanalarından biridir. 1895-ci ildə təsis edilən Nyu-York İctimai Kitabxanası (NYİK) şəhərin əhalisi və tədqiqatçılar üçün zəngin informasiya resursları təklif edən mühüm bir mərkəzdir. Kitabxana Nyu-Yorkun Manhetten, Bronks və Staten Adası (ing. *Staten Island*) bölgələrində yerləşən 92 filialı ilə geniş bir əraziyə xidmət göstərir (*Aabo, 2005).*

Kitabxananın əsas binası Manhettenin mərkəzi (ing. *Midtown*) bölgəsində yerləşir. Kitabxana binası xüsusilə oxu zalı və girişindəki məşhur aslan heykəlləri ilə tanınır və şəhərin mədəni simvollarından biri sayılır. Kitabxananın kolleksiyasında 50 milyondan çox material – o cümlədən kitablar, əlyazmalar, xəritələr, fotoşəkillər, tarixi sənədlər və multimediya resursları mövcuddur.

Nyu-York İctimai Kitabxanası həm yerli ictimaiyyətə, həm də beynəlxalq tədqiqatçılara geniş xidmətlər göstərir. Burada müxtəlif sərgilər, mühazirələr, təlimlər və uşaq proqramları təşkil edilir. Bundan əlavə kitabxana rəqəmsallaşdırma sahəsində də fəal çalışır və onlayn olaraq milyonlarla resursu istifadəçilərə əlçatan edir. NYİK bilik, mədəniyyət və ictimai əlaqələr mərkəzi kimi Nyu-Yorkun sosial və mədəni həyatında mühüm rol oynayır.

**Vatikan Apostol Kitabxanası (itl. *Biblioteca Apostolica Vaticana*).** Katolik Kilsəsinin mərkəzi olan Vatikanda yerləşən dünyaca məşhur bir kitabxanadır. 1475-ci ildən fəaliyyət göstərən bu kitabxana dünya miqyasında ən qədim və ən zəngin kitabxanalardan biri olaraq tanınır. Vatikan Kitabxanası, müstəqil bir dövlət olan Vatikanda, Papalığın himayəsi altında fəaliyyət göstərir və elmi, tarixi və mədəni irsin qorunmasında mühüm rol oynayır. Vatikan Kitabxanasının kolleksiyasında 1.1 milyon kitab, 75000-dən çox əlyazma, 8500-dən çox nadir kitab, tarixi sənədlər, xəritələr, incəsənət əsərləri və 150000-dən çox fotoşəkil yer alır *(Смирнов,*

*2021).*

Kitabxanada saxlanılan əlyazmalar bir çox dil və mədəniyyətə aid qədim və nadir əsərlərdən ibarətdir. Kitabxana tədqiqatçılar və alimlər üçün əvəzolunmaz bir resurs təqdim edir. Son illərdə Vatikan Kitabxanası öz kolleksiyasını rəqəmsallaşdırmağa yönəlmiş geniş proqramlar həyata keçirib. Bu dünya miqyasında tədqiqatçılar və maraqlı şəxslər üçün əlyazma və nadir əsərlərə onlayn olaraq çıxış imkanı yaradır. Rəqəmsal arxiv, mədəni irsin qorunması və tədqiqatların asanlaşdırılması baxımından əhəmiyyətli bir addımdır. Vatikan Kitabxanası tədqiqatçılar, alimlər və tələbələr üçün açıqdır. Kitabxana ziyarətçilərə öz kolleksiyaları ilə tanış olma imkanı verir və müxtəlif sərgilər, seminarlar və elmi konfranslar təşkil edir. Vatikan Kitabxanası Katolik Kilsəsinin tarixi və mədəni irsi ilə yanaşı, dünya mədəniyyətinə də böyük təsir göstərir.

Vatikan Kitabxanası yalnız Katolik Kilsəsi üçün deyil, eyni zamanda dünya mədəniyyəti və elmi araşdırmalar üçün də əvəzsiz bir mənbədir. Bu kitabxana tarixi, mədəni və dini biliklərin qorunmasında, öyrənilməsində və yayılmasında mühüm rol oynayır.

**Berlin Dövlət Kitabxanası.** Almaniyanın ən iri və ən məşhur kitabxanalarından biridir. 1661-ci ildən fəaliyyət göstərən bu kitabxana Berlində yerləşir və Alman mədəni irsinin və elminin qorunmasında və yayılmasında mühüm rol oynayır. Berlin Dövlət Kitabxanası, həmçinin dünyanın ən iri kitabxanaları arasında yer alır və geniş bir kolleksiyaya malikdir. Berlin Dövlət Kitabxanasının kolleksiyasında 37 milyondan çox material mövcuddur. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, xəritələr, musiqi partituraları, şəkillər və rəqəmsal resurslar daxildir. Kitabxana müxtəlif dillərdə və fənlər üzrə zəngin material təqdim edir, bu da tədqiqatçılar, tələbələr və geniş ictimaiyyət üçün əvəzolunmaz bir resurs yaradır.

Berlin Dövlət Kitabxanası 1661-ci ildən başlayaraq Prussiya Krallığının mədəniyyətini və elmini yaymaq məqsədilə yaradılmışdır. Zamanla kitabxana, müxtəlif əlyazmaları, incəsənət əsərlərini və digər nadir materialları toplayaraq genişləndi. XX əsrin ortalarında Berlinin bölünməsi, kitabxananın fəaliyyətini müvəqqəti olaraq çətinləşdirsə də, 1990-cı ildən sonra yenidən birləşmiş və inkişaf etməyə başlamışdır. Berlin Dövlət Kitabxanası müasir texnologiyaların istifadəsi ilə öz kolleksiyalarını rəqəmsallaşdırmağa çalışır. Rəqəmsal arxivlər vasitəsilə istifadəçilərə əlyazmaların, kitabların və digər materialların onlayn olaraq əlçatanlığını təmin edir. Bu dünya miqyasında tədqiqatçılara və maraqlı şəxslərə geniş məlumat resurslarına çıxış imkanı yaradır. Kitabxana tədqiqatçılar, tələbələr

və geniş ictimaiyyət üçün açıqdır. Ziyarətçilər kitabxananın sərgiləri ilə tanış ola, mühazirələrdə iştirak edə və mütaliə etmək üçün zəngin resurslardan istifadə edə bilərlər. Berlin Dövlət Kitabxanası elmi araşdırmalara, mədəni mübadilələrə və biliklərin paylaşılmasına xidmət edir *(Шрайберг, 2008)*.

Berlin Dövlət Kitabxanası yalnız Alman mədəniyyətinin deyil, dünya mədəniyyətinin və elminin inkişafında əhəmiyyətli bir rol oynayır. Onun zəngin kolleksiyası və müasir tədqiqat imkanları, bu kitabxananı tədqiqatçılar və mədəniyyətsevərlər üçün əvəzolunmaz bir mərkəz halına gətirdi.

**Çin Milli Kitabxanası.** Pekində yerləşən və ölkənin ən böyük kitabxanası olan bir müəssisədir. 1909-cu ildən fəaliyyət göstərən bu kitabxana Asiyanın ən iri kitabxanalarından biri kimi dünya miqyasında da tanınmışdır. Çin Milli Kitabxanasının tarixi 1909-cu ildə Pekin İmperial Kitabxanasının yaradılması ilə başlayır. 1953-cü ildən isə "Çin Milli Kitabxanası" adı altında fəaliyyətini davam etdirir. Kitabxananın kolleksiyasında 37 milyondan çox material mövcuddur. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, xəritələr, multimedia resursları və tarixi sənədlər daxildir. Onun kolleksiyasında 30000-dən çox nadir kitab və 2000-dən çox qədim əlyazmalar vardır.

Çin Milli Kitabxanası müasir texnologiyaların istifadəsi ilə öz kolleksiyalarını rəqəmsallaşdırmağa və dünya miqyasında istifadəçilərə təqdim etməyə çalışır. Rəqəmsal arxivlər vasitəsilə istifadəçilərə əlyazmaların, kitabların və digər materialların onlayn olaraq əlçatanlığını təmin edir, tədqiqatçılar üçün əhəmiyyətli bir resurs yaradır. Çinin mədəniyyətinə, tarixinə və elminə dair geniş məlumat bazası təqdim edən bu kitabxana, həm də mədəni mübadilələrə və beynəlxalq əməkdaşlığa əhəmiyyət verir. Çin mədəniyyətinin deyil, dünya mədəniyyətinin və elminin inkişafında əhəmiyyətli bir rol oynayır.

**Rusiya Dövlət Kitabxanası.** Rusiya Dövlət Kitabxanası (RDK) Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində yerləşir. Kitabxana 1862-ci ildə fəaliyyətə başlamışdır. RDK Moskva İctimai Muzeyinin və Rumyantsev Muzeyinin sənəd fondu əsasında formalaşmışdır. Yarandığı gündən yerli nəşrlərin məcburi nüsxələrini almışdır.

1861-ci ildə Rumyantsev muzeyinin Moskvaya verilməsi və Moskva İctimai Kitabxanasının (indiki Rusiya Dövlət Kitabxanasının) yaradılması haqqında çar hökuməti qərar qəbul etdi. 1861-ci ildə vəsaitlərin alınması, kitabxananın təşkili və sənəd kolleksiyalarının Sankt-Peterburqdan Moskvaya köçürülməsinə başlanmışdır *(Петрова, 2019)*.

Hazırda Rusiya Dövlət Kitabxanasının kolleksiyasında 50 milyona yaxın sənəd mühafizə olunur. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, xəritələr, musiqi partituraları, fotoşəkillər, audio və video materiallar daxildir. Kitabxana müxtəlif dillərdə və fənlər üzrə zəngin material təqdim edir, bu da tədqiqatçılar, tələbələr və geniş ictimaiyyət üçün əvəzolunmaz bir resurs yaradır.

Rusiya Dövlət Kitabxanası müasir texnologiyaların istifadəsi ilə öz kolleksiyalarını rəqəmsallaşdırmağa və istifadəçilərə onlayn təqdim etməyə çalışır. Rəqəmsal arxivlər vasitəsilə istifadəçilərə əlyazmaların, kitabların və digər materialların onlayn olaraq əlçatanlığını təmin edir. Bu dünya miqyasında tədqiqatçılara və oxuculara geniş məlumat resurslarına çıxış imkanı yaradır, elmi araşdırmalara, mədəni mübadilələrə və biliklərin paylaşılmasına xidmət edir.

**Rusiya Milli Kitabxanası.** Rusiya Federasiyasının ən iri kitabxanasıdır və dünyanın ən qədim kitabxanalarından biri olaraq tanınır. 1795-ci ildən fəaliyyət göstərən bu kitabxana Sankt-Peterburqda yerləşir və Rusiyanın mədəni, elmi və tarixi irsinin qorunmasında mühüm rol oynayır *(Məmmədova, 2018)*.

Rusiya Milli Kitabxanası 1795-ci ildə Rusiya İmperatoru I Pavel tərəfindən "Sankt-Peterburq İmperator Ümumi Kitabxanası" adı ilə yaradılmışdır. Kitabxana, zamanla genişlənmiş və XX əsrdə "Rusiya Milli Kitabxanası" adı altında fəaliyyətini davam etdirmişdir. Bu müddət ərzində kitabxana bir çox nadir və tarixi materiallar toplayaraq zənginləşmişdir *(Иванов, 2017)*.

Rusiya Milli Kitabxanasının kolleksiyasında 40 milyondan çox material mövcuddur. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, xəritələr, musiqi partituraları, audio və video materiallar daxildir. Kitabxana müxtəlif dillərdə və fənlər üzrə geniş bir material təqdim edir, bu da tədqiqatçılar, tələbələr və geniş ictimaiyyət üçün əvəzolunmaz bir resurs yaradır. Rusiya Milli Kitabxanası, müasir texnologiyaların istifadəsi ilə öz kolleksiyalarını rəqəmsallaşdırmağa və onlayn təqdim etməyə çalışır. Onun zəngin kolleksiyası, müasir tədqiqat imkanları və rəqəmsal xidmətləri, bu kitabxananı tədqiqatçılar və mədəniyyətsevərlər üçün əvəzolunmaz bir mərkəz halına gətirir.

**Kanada Kitabxanası və Arxivləri.** Kanadanın milli kitabxanası və arxividir. 2004-cü ildən fəaliyyət göstərən bu müəssisə Kanadanın mədəni irsinin qorunmasında, milli yaddaşın saxlanmasında və biliklərin yayılmasında mühüm rol oynayır. Ottava şəhərində yerləşir və Kanada xalqının mədəni, tarixi və ədəbiyyat irsinin mühafizəsi və tədqiqi məqsədini güdür.

Kanada Milli Kitabxanası 1953-cü ildən fəaliyyət göstərir və ilk dəfə 2004-cü ildən "Kanada Kitabxanası və Arxivləri" adı altında birləşdirilmişdir. Bu, Kanada hökumətinin mədəni irsi və məlumatları qorumaq məqsədilə həyata keçirdiyi bir islahatdır. Bu kitabxana-arxiv kolleksiyasında 54 milyonluq material vardır. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, şəkillər, video və audio materiallar, xəritələr, rəqəmsal resurslar və çoxsaylı arxiv sənədləri daxildir. Bu kolleksiya Kanada tarixi, mədəniyyəti, ədəbiyyatı və sənətinin geniş bir spektrini əhatə edir.

Kanada Milli Kitabxanası və Arxivi müasir texnologiyaların istifadəsi ilə öz kolleksiyalarını rəqəmsallaşdırmağa yönəlmişdir. Bu istifadəçilərə əlyazmaların, kitabların, fotoşəkillərin və digər materialların onlayn olaraq əlçatanlığını təmin edir. Rəqəmsal arxivlər, tədqiqatçılar və geniş ictimaiyyət üçün əvəzolunmaz bir resurs olaraq fəaliyyət göstərir. Kitabxana və arxivlər tədqiqatçılar, tələbələr və geniş ictimaiyyət üçün açıqdır. Ziyarətçilər kitabxananın sərgiləri ilə tanış ola, mühazirələrdə iştirak edə və mütaliə etmək üçün zəngin resurslardan istifadə edə bilərlər. Müəssisə, həmçinin müxtəlif təhsil proqramları və ictimai fəaliyyətlər təşkil edərək mədəni mübadiləni təşviq edir.

Kanada Milli Kitabxanası və Arxivi Kanada mədəniyyətinin və tarixinin mühafizəsində, elmi tədqiqatlarda və biliklərin paylaşılmasında əhəmiyyətli bir rol oynayır. Onun zəngin kolleksiyası, müasir tədqiqat imkanları və rəqəmsal xidmətləri bu qurumu tədqiqatçılar, tələbələr və mədəniyyətsevərlər üçün əhəmiyyətliu rol oynayır.

**İsveçrə Milli Kitabxanası.** İsveçrənin mədəni irsinin və elmi məlumatlarının qorunmasında və yayılmasında əhəmiyyətli bir rol oynayan dövlət kitabxanasıdır. 1895-ci ildən fəaliyyət göstərən bu kitabxana Bern şəhərində yerləşir və İsveçrə Respublikasının rəsmi kitabxanası kimi tanınır.

İsveçrə Milli Kitabxanası, 1895-ci ildən etibarən fəaliyyətə başlamışdır. Onun yaradılması ölkənin mədəni və tarixi irsinin qorunmasını təmin etmək məqsədini güdür. Kitabxana zamanla genişlənmiş və İsveçrənin müxtəlif dillərində (almanca, fransızca, italyanca, romansca) olan mətbu materialları toplayaraq zənginləşmişdir.

İsveçrə Milli Kitabxanasının kolleksiyasında 5 milyonun üzərində material vardır. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, xəritələr, audio və video materiallar daxildir. Kitabxana İsveçrənin tarixi, mədəniyyəti, ədəbiyyatı və elmi fəaliyyəti ilə bağlı geniş bir məlumat bazası təqdim edir. Müasir texnologiyaların istifadəsi ilə öz resurslarını rəqəmsallaşdırmağa yönəldən kitabxana oxucular üçün geniş istifadə imkanı yaradır.

**Milli Parlament Kitabxanası (ing. *National Diet Library*).** Yaponiya dövlətinin milli kiabxanasıdır. 1948-ci ildən fəaliyyət göstərən bu kitabxana Tokio şəhərində yerləşir və Yaponiya parlamentinin (Dieta) qanunverici orqanı üçün məlumat təmin etmək məqsədini güdür. TMK ölkənin qanunverici fəaliyyəti ilə bağlı geniş məlumat bazası təqdim edir.

Kitabxana 1952-ci ildən etibarən bütün Yaponiyada məcburi olaraq kitab toplayır. Bu da kitabxananın kolleksiyasının genişlənməsinə və Yaponiyanın mədəni irsinin mühafizəsinə imkan tanımışdır. Kitabxananın kolleksiyasında 40 milyondan çox material mövcuddur. Buraya kitablar, əlyazmalar, dövrü mətbuat, xəritələr, audio və video materiallar, elmi jurnallar, hökumət sənədləri və digər resurslar daxildir. Kitabxana Yaponiya tarixini, mədəniyyətini, iqtisadiyyatını və elmini əhatə edən geniş məlumat təqdim edir. Müasir texnologiyaların istifadəsi ilə öz kolleksiyalarını rəqəmsallaşdırmağa yönəldən kitabxana onlayn olaraq oxuculara məlumat resurslarına çıxış imkanı yaradır.

## NƏTİCƏ

***Cəmiyyətdə sosial əlaqələrin rolu və onlarin təsirləri***

İctimai kitabxanalar yalnız bilik və məlumat mənbəyi olmaqla kifayətlənməyərək, sosial əlaqələrin gücləndirilməsi və cəmiyyətin rifahına xidmət edən mərkəzlərə çevrilmişdir. Müasir dünyada ictimai kitabxanaların rolunun cəmiyyətə sosial təsiri və insanların bir-birilə əlaqə yaratmasında olan əhəmiyyəti hər ötən gün artır. Müxtəlif yaş qruplarından və sosial təbəqələrdən olan insanların görüşdüyü və bir araya gəldiyi məkanlardır. İnsanlar bu yerlərdə ortaq maraqlar ətrafında ünsiyyət qurur, bir-birilə fikir mübadiləsi aparır və sosial əlaqələr yaradırlar *(Иванов, 2017)*. Müxtəlif mədəni və etnik mənsubiyyətlərdən olan fərdləri qəbul edərək, onlara sosial baxımdan inteqrasiya olmaq imkanı yaradır. Xüsusilə miqrantların yerli icmalarla tanış olması və cəmiyyətə inteqrasiyası üçün əvəzolunmazdır.

İctimai kitabxanalar fərdlərin ömür boyu təhsil ala biləcəyi yerlərdir. Kitabxanalarda təklif olunan kurslar, seminarlar və mühazirələr, müxtəlif mövzularda biliklərə yiyələnmək üçün şərait yaradır. Məsələn, Böyük Britaniyada ictimai kitabxanalar karyera təlimləri və iş axtarma ilə bağlı seminarlar keçirir. Bir çox kitabxana, yeni dil öyrənmək və inkişaf etdirmək istəyənlər üçün kurslar təqdim edir. Bu miqrantların və xarici mənsubiyyətli insanların yeni bir dil öyrənməklə cəmiyyətə daha asan inteqrasiyasına kömək edir.

İctimai kitabxanalar təzyiqsiz bir mühit təmin edərək insanların psixoloji rifahına müsbət təsir göstərir. Xüsusilə sığınacağa ehtiyacı olan

insanlar, işsizlər və ya sosial izolyasiyadan əziyyət çəkənlər üçün dəyərli bir resurs olur. Kitabxanalar xüsusilə internetə çıxışı məhdud olan şəxslər üçün kompyuter və internet təmin edir. Bu da rəqəmsal savadlılığın artırılmasına və məlumat boşluğunun azaldılmasına xidmət edir. Kitabxanalarda təşkil olunan rəqəmsal savadlılıq kursları fərdlərə yeni texnologiyalardan istifadə etməyi öyrədir. Bütün bunlar insanların iş bazarında rəqabət qabiliyyətini artırır və cəmiyyətin ümumi inkişafına töhfə verir, onlayn kitabxanalar, elmi məqalələr və məlumat bazaları ilə insanlara geniş miqyasda resurslara çıxış imkanı təqdim edir. Kitabxanalarda müxtəlif dillərdə kitabların və xarici ədəbiyyatların mövcudluğu qlobal müxtəlifliyi təqdim etməklə yanaşı, icma üzvlərinin mədəniyyətlərarası dialoqun inkişafını dəstəkləyir. İnsanların fərqli perspektivləri öyrənməsinə, mədəni mübadiləyə açıq olmalarına və müxtəlif cəmiyyətlərin zənginliklərini anlamalarına şərait yaradır.

***Dünya ictimai kitabxanalarının qarşında duran problemlər***

İctimai kitabxanalar dünya miqyasında əhəmiyyətli resurs mərkəzləri olsa da müasir dövrdə onların fəaliyyətini və davamlılığını təmin etmək üçün bir çox problemlə üzləşirlər. Bu problemlər texnoloji dəyişikliklərdən tutmuş maliyyə çətinliklərinə, həmçinin dəyişən sosial tələblərə qədər müxtəlif sahələri əhatə edir *(Hüseynov, 2020)*.

❖ Kitabxanaların maliyyələşdirilməsi əksər hallarda hökumət, dövlət və yerli qurumların dəstəyindən asılıdır. İqtisadi böhranlar zamanı kitabxanaların maliyyələşməsi kəsilə bilər ki, bu da yeni kitabların, texnoloji yeniliklərin və rəqəmsal resursların alınmasına mane olur.

❖ Bəzi ölkələrdə kitabxanalar qrant və sponsor dəstəkləri ilə fəaliyyət göstərir, lakin bu sahədə də son illərdə azalma müşahidə edilir.Kitabxanalar oxucuların tələbatına cavab olaraq rəqəmsal resursları artırmaq məcburiyyətindədirlər. Bu isə böyük maliyyə xərcləri və texniki dəstək tələb edir.

❖ Rəqəmsal resurslara keçid müəyyən qrupların, xüsusilə yaşlı və ya texnoloji bacarığı az olan insanların çətinliklərlə üzləşməsinə səbəb ola bilər. Bu rəqəmsal bərabərsizliyi artıraraq bəzi insanların rəqəmsal kitablardan yararlanmasını məhdudlaşdırır.

❖ Onlayn kitabxana xidmətlərinin artması məlumat təhlükəsizliyi və məxfilik məsələlərini gündəmə gətirir. İstifadəçilərin şəxsi məlumatlarının qorunmasını təmin etmək üçün əlavə tədbirlər tələb edir.

İnternetin və rəqəmsal mənbələrin inkişafı ilə insanların ənənəvi kitabxana xidmətlərinə marağı azalır. Bir çox istifadəçi kitabxanaya fiziki olaraq getmək əvəzinə onlayn məlumat bazalarına üstünlük verir. Müasir istifadəçilər kitabxanadan təkcə kitab almaq deyil, həm də internetə çıxış,

rəqəmsal təlimlər və iş axtarışı məsləhətləri kimi xidmətlər tələb edir. Kitabxanalar bu yeni tələblərə uyğunlaşmaqda çətinlik çəkə bilər *(McClure & Bertot, 2020)*.

Kitabxanalarda rəqəmsal və texnoloji bacarıqlara malik peşəkar kadrların çatışmazlığı müşahidə edilir. Xüsusilə rəqəmsal kitabxanaların idarə edilməsi və məlumat təhlükəsizliyi sahəsində təcrübəli işçilərin çatışmazlığı böyük bir problemdir. Bir çox kitabxana işçisi aşağı maaş və məhdud imkanlar daxilində çalışır. Bu isə təcrübəli işçilərin kitabxana sektorundan ayrılmasına səbəb ola bilər *(Кузнецова, 2018)*.

Pandemiya dövründə bir çox kitabxana fiziki xidmətlərini məhdudlaşdırmağa və ya dayandırmağa məcbur qaldı ki, bu da insanların kitablara çıxışını məhdudlaşdırdı və kitabxanaların fəaliyyətinə mənfi təsir göstərdi. Pandemiya kitabxanaların sanitariya və gigiyena standartlarına riayət etməsini tələb edir, bu isə əlavə maliyyə yükü yaradırdı.

Amazon, Google Books və digər rəqəmsal kitab bazaları kitabxanalar üçün güclü rəqabət mənbəyidir. Bu platformalar geniş kitab seçimi və asan əlçatanlıq təklif etdiyindən istifadəçiləri cəlb edir. Bəzi insanlar kitabları almağa üstünlük verir və ya e-kitab platformalarından istifadə edir ki, bu da ənənəvi kitabxanalara marağın azalmasına səbəb ola bilər. Kitabxanalar bu çağırışlara cavab vermək üçün xidmətlərini genişləndirməli, rəqəmsallaşmalı və cəmiyyətin dəyişən ehtiyaclarına uyğunlaşmalıdırlar. Rəqəmsal xidmətlərin artırılması, işçi təlimləri və istifadəçilərlə daha sıx əlaqələr qurmaq bu problemlərin həllində vacib addımlar ola bilər.

***Azərbaycanda ictimai kitabxanalarin fəaliyyəti və onların qarşısındakı problemlər***

Azərbaycanda ictimai kitabxanaların qarşısında duran problemlər bir sıra mühüm aspektlərdən ibarətdir. Bu aspektlər ölkənin mədəni, sosial və iqtisadi inkişafı ilə sıx bağlıdır. Azərbaycanda müstəqillikdən sonra kitabxana şəbəkəsi genişləndirilmiş, müxtəlif bölgələrdə yeni kitabxanalar açılmışdır. Bununla yanaşı ölkədə 1500-dən çox kitabxana fəaliyyət göstərir, o cümlədən milli, regional və kənd kitabxanaları da mövcuddur. Son illərdə dövlət tərəfindən kitabxana fondunun zənginləşdirilməsi üçün müxtəlif proqramlar həyata keçirilmişdir. Yeni kitablar, elmi jurnallar və rəqəmsal resurslar satın alınmışdır.

Azərbaycanda mütaliənin stimullaşdırılması məqsədilə rəqəmsal kitabxanaların yaradılması yaradılması istiqamətində fəaliyyət göstərir. "Azərbaycan Milli Rəqəmsal Kitabxanası" layihəsi ilə milli və beynəlxalq resurslara onlayn şəkildə çıxış imkanı artırılır *(Məmmədova, 2018)*. Bəzi kitabxanalarda internet xidməti və texnoloji avadanlıqlar mövcuddur, lakin

bütün kitabxanalarda bu cür imkanların olması problemli ola bilər. Dövlət büdcəsindən kitabxanaların fəaliyyətini dəstəkləmək üçün müəyyən vəsait ayrılır. Lakin bu vəsaitlərin kifayət etməməsi, bəzi kitabxanaların müasir tələblərə uyğunlaşmasına mane ola bilər. Bəzi kitabxanalar qeyri-hökumət təşkilatlarından və beynəlxalq təşkilatlardan dəstək alır. Lakin bu dəstək məhduddur və bütün kitabxana sistemini əhatə etmir. İstifadəçilərin kitabxana xidmətlərinə olan marağı dəyişir. Gənc nəsil daha çox onlayn resursları və rəqəmsal kitabları seçir, bu isə kitabxanaların fiziki resurslarına marağı azaldır. Kitabxanalar müxtəlif yaş qruplarına və sosial qruplara xidmət etmək üçün mütaliə saatları, təlimlər və seminarlar təşkil edir. Bu istifadəçilərin kitabxanaya marağını artırmağa kömək edir.

Bəzi kitabxanaların binaları köhnəlib, müasir standartlara cavab vermir. Bu, istifadəçilərin rahatlığını və kitabxananın fəaliyyətini mənfi təsir edir. Kitabxanaların bəziləri kifayət qədər maliyyə resursuna malik olmadığından, yeni kitabların alınması, texnologiyaların yenilənməsi və xidmətlərin inkişafı mümkün olmur. Kitabxana sahəsində təcrübəli işçi kadrlarının çatışmazlığı da mühüm problemlərdəndir. Bu da kitabxana xidmətlərinin keyfiyyətini aşağı sala bilir. Azərbaycanın kitabxanaları rəqəmsal texnologiyalara daha çox yönəlməli, müasir istifadəçi tələblərinə uyğun xidmətləri inkişaf etdirməlidir. Kitabxanalar təhsilin inkişafına dəstək vermək, mədəniyyətin yayılmasına kömək etmək və cəmiyyəti məlumatlandırmaq üçün daha fəal olmalıdır. Kitabxanalar tədqiqatçılar üçün daha çox dəstək və resurslar təqdim etməli, elmi fəaliyyətləri stimullaşdırmalıdır.

Göründüyü kimi, ictimai kitabxanaların inkişafı və onların cəmiyyətə verdiyi töhfə mühüm əhəmiyyət kəsb edir. Və dövlətin, cəmiyyətin dəstəyi ilə kitabxanaların fəaliyyətini daha da genişləndirmək və modernləşdirmək vacibdir. Belə ki, bu bilik cəmiyyətinin formalaşmasına və mədəni inkişafın təşviqinə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT

*Aabo, S. (2005).* The Role and Value of Public Libraries in the Society. Journal of Librarianship and Information Science, pp. 202-220.

*Əhmədov, F. (2015).* Kitabxana və ictimaiyyət: Tarix və Müasirlik. Bakı: Azərbaycan Kitab Yayım Evi, 220 s.

*Hüseynov, R. (2020).* Müasir kitabxana xidməti və sosial inkişaf. Bakı: Gənclik Nəşriyyatı.

*Məmmədova, L. (2018).* İctimai kitabxanaların inkişafı və rolu. Bakı: Elm və Təhsil Nəşriyyatı, 180 s.

*McClure, C. R., & Bertot, J. C. (2020).* The Evolving Role of Public Libraries in the Digital Age, pp. 50-135.

*Иванов, С.П. (2017).* Социально-экономическое воздействие общественных библиотек. Москва: Изд-во Наука, 250 с.

*Кузнецова, М.В. (2018).* Информационные ресурсы общественных библиотек и их влияние на общество. Екатеринбург: Изд-во Уральский университет, 190 с.

*Петрова, А.В. (2019).* Роль общественных библиотек в развитии местных сообществ. СП(b): Лань, 210 с.

*Смирнов, А.Н. (2021).* Общественные библиотеки и цифровая трансформация: социальные и экономические аспекты. М.: Просвещение, 230 с.

*Шрайберг, Я.Л. (2008).* Роль библиотек в обеспечении доступа к информации и знаниям в информационном веке: ежегод. доклад. Науч. и техн. б-ки. №1, с. 7-44.

**Shafag İsrafil gizi Islamova**
*Head of the library of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan, Doctor of Philosophy in History*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# ROLE AND IMPACT OF FOREIGN PUBLIC LIBRARIES ON SOCIO-ECONOMIC DEVELOPMENT

***Abstract:*** *The article analyzes the socio-economic role of public libraries abroad and their impact on society in various aspects. The article emphasizes that libraries are not limited to being information centers, but also contribute to social equality and economic opportunities by providing knowledge and resources to local communities. In addition, the article shows how public libraries strengthen social ties, disseminate technological knowledge, and support economic development in the labor market by providing training and resources to students.*

*Thus, in short, the article comprehensively examines the social and economic impacts of public libraries and discusses their benefits to society.*

***Keywords:*** *Science, public library, socio-economic development,*

*librarianship, library service, education.*

**Шафаг Исрафил кызы Исламова**
*Заведующий библиотекой Института экономики*
*Министерства науки и образования*
*Азербайджанской Республики,*
*Доктор философии по истории*
***Электронная почта:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

## РОЛЬ И ВЛИЯНИЕ ЗАРУБЕЖНЫХ ОБЩЕСТВЕННЫХ БИБЛИОТЕК В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

***Резюме:*** *В статье анализируется социально-экономическая роль общественных библиотек за рубежом и их влияние на общество в различных аспектах. Подчеркивается, что библиотеки не ограничиваются ролью информационных центров; они также способствуют социальному равенству и расширению экономических возможностей, предоставляя знания и ресурсы местным сообществам. В статье также рассматривается, как общественные библиотеки укрепляют социальные связи, распространяют технологические знания и поддерживают экономическое развитие на рынке труда, предлагая обучение и ресурсы для учащихся. Таким образом, в статье всесторонне исследуются социальные и экономические воздействия общественных библиотек, подчеркивая их пользу для общества.*

***Ключевые слова:*** *Наука, публичная библиотека, социально-экономическое развитие, библиотечное дело, библиотечное обслуживание, образование.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 19.02.2024; çapa qəbul edilib – 01.04.2024.



KİTABXANA.AZ, 2024, aprel, №1(40), 19-25



**UOT/UDC/УДК *002.2***

DOI 10.5281/zenodo.16963992

**Sevda Feyruz qızı Quliyeva**
*Bakı Dövlət Universiteti*
*"Redaksiya-nəşriyyat işi" kafedrasının müəllimi,*
*Filologiya üzrə fəlsəfə doktoru*
***E-mail:*** sevdaquliyeva@bsu.edu.az
*https://orcid.org/0000-0003-1161-6110*

# ÖMRÜNÜ KİTABA VƏ KİTABÇILIQ İŞİNƏ HƏSR EDƏN ALİM

***Xülasə:*** *Professor Bayram Allahverdiyev (1938-2019) Azərbaycan kitabşünaslıq elminin inkişafına mühüm töhfələr vermiş görkəmli alimlərdən biridir. Onun apardığı tədqiqatlar kitabşünaslıq sahəsində dərin elmi araşdırmalarla səciyyələnir və bu sahənin nəzəri-metodoloji əsaslarının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Professor B.Allahverdiyev elmi məqalələrində kitab tarixinin yeni milli müstəqillik təfəkkürü kontekstində araşdırılmasının zəruriliyini vurğulamış, onun milli və ümumbəşəri dəyərlər əsasında yenidən qiymətləndirilməsini önə çəkmişdir. Alimin fikrincə, Azərbaycan kitabının tarixi zənginliyi və milli özünüdərk prosesinin əhəmiyyəti xüsusilə XX və XXI əsrlərin qovşağında daha qabarıq şəkildə üzə çıxmışdır. Bu dövr xalqın milli müstəqillik mübarizəsi və özünüdərk prosesinin təzahürü baxımından kitab tarixində mühüm mərhələ təşkil edir. Məqalədə professor B.Allahverdiyevin elmi yaradıcılığı kompleks şəkildə təhlil olunur, yerli tədqiqatçılar tərəfindən aparılmış araşdırmalara istinadən onun kitabşünaslıq və nəşriyyat işi sahəsindəki əvəzsiz xidmətləri geniş şəkildə işıqlandırılır.*

***Açar sözlər:*** *Azərbaycanda nəşriyyat işi, professor Bayram Allahverdiyev, kitabşünaslıq, kitabçılıq işi, nəşriyyat işi, kitab.*

## GİRİŞ

Professor Bayram Allahverdiyev 1968-ci ildə "Orta əsr Azərbaycan kitabı" (XI – XVIII əsrlər) mövzusunda dissertasiya işi müdafiə edərək, filologiya elmlər namizədi alimlik dərəcəsi almışdır. O, orta əsrlərdə

Azərbaycan kitabının öyrənilməsi, tədqiqata cəlb edilməsi üçün böyük zəhmət sərf etmiş, xeyli sayda elmi məqalələr çap etdirmişdir: "Orta əsr Azərbaycan kitabı" (1967), "Xəttatlar və kitab sənəti" (1968), "Каллиграфия и книжное исскусство" (1968), "XVIII əsrin I yarısında Azərbaycanda əlyazma kitablarının bəzi xüsusiyyətləri" (1970) və sairə *(Azərbaycan Kitabxana Ensiklopediyası, 2015)*.

Qeyd edək ki, Azərbaycan kitabşünaslığının inkişaf etdirilməsində professor Bayram Allahverdiyevin müstəsna xidmətləri olmuşdur. Bu problemlərlə bağlı mətbuat səhifələrində müxətlif illərdə xeyli sayda əhəmiyyətli məqalələrlə çıxış etmişdir: "Azərbaycan kitabşünaslığının inkişafına dair bəzi mülahizələrim" (1997), "Görkəmli Azərbaycan kitabşünas alimi Salman Mümtaz" (1999), "Azərbaycan kitabşünaslığının tarixinə bir nəzər" (2003), "XX əsr Azərbaycan kitabşünaslığına nəzəri baxış" (2008) və s.

Professor Bayram Allahverdiyev kitabşünaslıq elminin meydana gəlməsini belə izah edir: "Kitabın müxtəlif komponentlərinin formalaşması və inkişafı, onun müxtəlif aspektlərinin öyrənilməsini şərtləndirmiş, nəticədə kitab haqqında kompleks elm olan kitabşünaslıq meydana gəlmiş və inkişaf etmişdir" *(Allahverdiyev, 2011)*.

## MÜZAKİRƏ

Professor Bayram Allahverdiyev öz tədqiqat əsərlərində Azərbaycanda kitabşünaslıq elminin tarixinin qədimliyini ön plana çəkmiş, Azərbaycan şairlərinin, filosoflarının, ziyalılarının və b. kitabşünaslığın müxtəlif sahələrinə dair söylədiyi fikirlərdən nümunlər göstərərək fikrini bir daha sübuta yetirmişdir. Bu kontekstdə məqalədə sistemli yanaşma, tarixilik, müqayisə və xronoloji təhlil metodlarından istifadə olunmuşdur.

Professor B.Allahverdiyev XIX yüzillik və XX yüzilin əvvəllərində Azərbaycanda kitabşünaslıq elminin zənginləşməsində müstəsna xidmətləri olmuş A.Bakıxanov, M.Kazımbəy, M.Ş.Vazeh, M.F.Axundov, H.Zərdabi, Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, S.Mümtaz, Ə.Ə.Səidzadə və başqa mütəfəkkir və şairlərin, yazıçıların ədəbiyyatşünasların əməyini xüsusi qiymətləndirmişdir. O qeyd edir ki, "Onlar kitab çapı, nəşriyyat işi, redaktə işi, kitab tərcüməsi, nəşrin bədii tərtibatı və poliqrafik icrası kitab və oxucu, kitabın təbliği və yayılması, kitabxana və biblioqrafiya işi və s. sahələr və problemlər üzrə qiymətli fikirlər irəli sürmüş, Azərbaycan kitabşünaslığında faydalı səhifələr açmışlar" *(Allahverdiyev, 1997)*.

XX əsr isə məlum olduğu kimi, inqilablar, müharibələr, dünya miqyasında siyasi və ideoloji sisitemlərin mübarizəsi, qarşıdurması və nəhayət, ilk sosialist dövləti kimi meydana çıxmış SSRİ-nin dağılması

əsridir. Bu əsrdə cəmiyyət həyatında, hər bir xalqın həyat tərzində ciddi hadisələr, dəyişmələr baş vermişdir və bütün bunlar kitab tarixində təsirsiz qalmamış, bəlkə əksinə kitab nəşri əsrin bütün bu nəhəng, qlobal hadisələrini əks edərək yaranmış, inkişaf etmişdir. Buna görə də XX əsrdə Azərbaycan kitab tarixi demək olar ki, yeni məzmun, yeni istiqamət kəsb etmiş, başqa sözlə yenidən yaranmışdır *(Allahverdiyev, 2008)*.

Qeyd edək ki, Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin (əvvəlki adı: Kitabxanaçılıq-informasiya) nəzdində yaranmış "Kitabşünaslıq və kitab ticarətinin təşkili, sonradan "Kitabşünaslıq və nəşriyyat işi", hal-hazırda isə "Redaksiya-nəşriyyat işi" adı ilə fəaliyyət göstərən kafedranın yaranmasında, tarixi inkişafında və müasir tələblər səviyyəsində formalaşmasında professor B.Allahverdiyevin müstəsna xidmətləri olmuşdur.

Professor Bayram Allahverdiyevin elmi fəaliyyətində xüsusi əhəmiyyətli nəşrlərdən biri kimi "Kitabşünaslıq və nəşriyyat işi" elmi-nəzəri və təcrübi jurnalını qeyd etmək olar. B.V.Allahverdiyev bu jurnalı 2008-ci ildə təsis etmiş və özünün elmi redaktorluğu ilə çap etdirməyə başlamışdır. Bu jurnal Azərbaycanda ilk dəfə olaraq məhz kitabşünaslıq və nəşriyyat işinin mühüm məsələlərini əhatə edən elmi əhəmiyyətli jurnal kimi işıq üzü görmüşdür. Jurnal ildə 4 dəfə nəşr olunurdu. Jurnalda maraqlı rubrikalar üzrə məqalələr dərc edilirdi. Həmin rubrikalar aşağıdakılardır: Kitabşünaslıq, Kitab nəşri problemləri, Kitabçılıq işi, Redaktə məsələləri, Mətnşünaslıq, Jurnalistika problemləri. Qeyd kimi bildirək ki,

2008-ci ildə jurnalın №1, №2, №3, №4;
2009-cu ildə №1;
2010-cu ildə №1, №2;
2011-ci ildə №1, №2, №3;
2012-ci ildə №1, №2, №3;
2013-cü ildə №1;
2014-cü ildə №1, №2;
2015-ci ildə №1;
2017-ci ildə №1;
2018-ci ildə №1, №2, №3 sayları nəşr olunmuşdur.

2019-cu ildən (prof. B.V.Allahverdiyevin vəfatından sonra) jurnal faktiki olaraq öz fəaliyətini dayandırmışdır.

Professor Bayram Allahverdiyevin əhəmiyyətli kitablarından "Kitablar haqında kitab" əsəri 1972-ci ildə, "Kitabşünaslıq" adlı monoqrafiyası isə 1974-cü ildə ADU nəşriyyatında 181 səhifə həcmində işıq üzü görmüşdür. Alim bu əsərlərində kitabşünaslıq elminin məqsədini, digər

elm sahələri ilə əlaqəsini əsaslı şəkildə şərh edir. Professor B.V.Allahverdiyev qeyd edir ki, kitabşünaslığın məqsədi kitabçılıq işinin inkişafını tənzim etmək, onun əsas inkişaf istiqamətlərini müəyyənləşdirmək, vətən və xarici kitab nəşri sahəsindəki təcrübənin öyrənilməsiəsasında özünü təkmilləşdirmək, sosiologiya, psixologiya, pedaqogika və s. elm sahələrindən əldəedilmiş materialları inteqrasiya etmək, hər bir tarixi mərhələdə şəraiti və vasitələri üzə çıxarmaq, kitabın ideoloji mübarizə silahı, tərbiyə, təhsil, elm, texnika, mədəni tərəqqi, xalqlar arasında ünsiyyət vasitəsi kimi ictimai funksiyalarını öyrənməkdən ibarətdir *(Allahverdiyev, 1974)*.

Azərbaycanda kitabın tipologiyası problemi əsaslı cəhətdən ilk dəfə professor Bayram Allahverdiyevin elmi-tədqiqat əsərlərində və "Kitabşünaslıq" adlı dərs vəsaitində öz əksini tapmışdır. Doğrudur, alim özünün bu elmi əsərində müəyyən konkret bir sahəni təbiət elmləri və texnika sahələri üzrə kitabın tipologiyasını, onun əlamətlərini elmi şəkildə əsaslandırmışdır. O, bu kitabda yazır: "Çap əsərlərinin təsnifləşdirilməsində nəzərə alınan əsas əlamətlərdən biri də məzmundur. Çap əsərlərinin məzmununa görə ədəbiyyat bir çox növlərə bölünür. Deməli, ədəbiyyatın məzmununa görə növlərindən biri də təbiət elmləri, riyaziyyat və texnika üzrə nəşrlərdir. O qeyd edir ki, ədəbiyyatın təsnifləşdirilməsində nəzərə alınan ümumi əlamətlərdən biri də nəşrin formasıdır və buna görə də, ədəbiyyat nəşr növlərinə bölünür. Çap əsərlərinin nəşriyyat formasından asılı olaraq nəşrin növü, forması müəyyənləşir və bunlar aşağıdakılardır: kitablar, kitabçalar, dövri nəşrlər (jurnallar, qəzetlər, bülletenlər), vərəqələr, plakatlar və s." *(Allahverdiyev, 1974)*.

Professor Bayram Allahverdiyevin növbəti əhəmiyyətli kitablarından biri "Müasir mərhələdə kitab ticarətinin təşkili" (R.Məmmədzadə ilə birlikdə) adlanır. Bu kitab 1996-cı ildə 225 səhifə həcmində "Gənclik" nəşriyyatında işıq üzü görmüşdür. Kitabın redaktoru Məmməd Namaz; bədii redaktoru F.Əfəndi; texniki redaktoru L.Qarayeva, korrektoru D.Məlikovadır.

Kitabda mövzu altı fəsil daxilində qruplaşdırılmışdır: kitab ticarəti təşkilinin əsasları, kitab ticarətinin təşkilati quruluşu, topdansatış kitab ticarətinin təşkili, pərakəndə kitab ticarətinin təşkili, kitabxanaların kitab fondlarının komplektləşdirilməsinin təşkili, müasir dövr və kitab ticarətinin təşkili problemləri *(Quliyeva, 2006)*.

Professor Bayram Allahverdiyevin elmi yaradıcılığında ən mühüm əhəmiyyət kəsb edən tədqiqat əsəri "Ümumi kitab tarixi"dir. Bu kitab "Azərbaycan Milli Ensiklopediyası" NPB-də 2003-cü ildə 384 səhifə həcmində çap edilmişdir *(Azərbaycan Kitabxana Ensiklopediyası, 2015)*.

Professor Bayram Allahverdiyevin 2010-cu ildə müəllifliyi ilə nəşr edilən növbəti kitab "Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti" adlanır. Bu kitab "UniPrint" nəşriyyatında, 144 səhifə həcmində çap edilmişdir *(Allahverdiyev, 2010)*.

Professor Bayram Allahverdiyevin "Kitabın tipologiyası" adlı iri həcmli monoqrafiyası 2017-ci ildə 578 səhifə həcmində "ÇapART" Nəşriyyat Evi tərəfindən işıq üzü görmüşdür *(Allahverdiyev, 2017)*.

**NƏTİCƏ**

Məqalədə aparılan ümumi təhlillər nəticəsində məlum oldu ki, professor Bayram Allahverdiyev ömrünün böyük bir hissəsini kitabşünaslıq elminin inkişaf etdirilməsinə yönləndirmiş, bu sahə ilə bağlı xeyli tədqiqatlar aparmış, nəticədə isə fundamental əsərlər ərsəyə gətirmiş və bunun müqabilində qətiyyətlə deyə bilərik ki, Azərbaycan kitabşünaslıq elminin inkişaf etdirilməsində müstəsna xidmətləri olan dəyərli alimlərimizdən biridir. Apardığımız araşdırmalar nəticəsində bəlli olur ki, alim kitabşünalıq və nəşriyyat işi sahəsində apardığı araşdırmalar əsasında yüzlərlə elmi məqalələr yazmış, dövri mətbuat səhifələrində də tez-tez mövcud problemlərlə bağlı çıxış etmişdir. Əminliklə deyə biərik ki, bu bu elmi məqalə professor B.Allahverdiyevin elmi əsərlərinə qiymət verən və onun yaradıcılığına tez-tez müraciət edən oxucu kütləsi üçün lazımlı informasiya mənbəyi olacaqdır.

## ƏDƏBİYYAT

*Azərbaycan Kitabxana Ensiklopediyası. (2015).* Bakı: Zərdabi-Nəşr MMC, 632 s.

*Allahverdiyev, B.V. (1997).* Azərbaycan kitabşünaslığının inkişafına dair bəzi mülahizələrim. Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal, №1, s. 45-54.

*Allahverdiyev, B.V. (2010).* Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti. Monoqrafiya. Bakı: UniPrint, 144 s.

*Allahverdiyev, B.V. (2008).* Heydər Əliyev və Azərbaycan kitab nəşri mədəniyyəti. Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, №2, s. 3-15.

*Allahverdiyev, B.V. (1974).* Kitabşünaslıq. Bakı: ADU, 181 s.

*Allahverdiyev, B.V. (2011).* Kitabşünaslığın əsasları. Monoqrafiya. Bakı: UniPrint, 446 s.

*Allahverdiyev, B.V. (2017).* Kitabın tipologiyası. Monoqrafiya. Bakı: "ÇapART" Nəşriyyat Evi, 578 s.

*Quliyeva, S. (2006).* Azərbaycan soraq-məlumat ədəbiyyatı: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri. Bakı: Təhsil, 176 s.

**Sevda Feyruz gizi Guliyeva**
*Baku State University*
*Lecturer of the Department of "Editorial and publishing work",*
*Doctor of Philosophy in Philology*
***E-mail:*** sevdaguliyeva@bsu.edu.az
*https://orcid.org/0000-0003-1161-6110*

## A SCIENTIST WHO DEVOTES HIS LIFE TO BOOKS AND BOOKWORK

***Abstract:*** *Professor Bayram Allahverdiyev (1938-2019) made exceptional contribu-tions to the development of Azerbaijani book science (bibliology). Professor B.Allahverdiyev obtained many important results while exploring the deep roots of bibliology. He notes in his scientific articles that bibliology should re-apply to the book history of this century from the level of thinking of national independence, study it on the basis of new national and universal values, and thus express the vision of the 21st century, which began the 20th century. The historical existence and existence of the Azerbaijani book appeared and proved itself in this century with all its rich-ness, all its historical and territorial boundaries. It is also important that the book history of this century was the book history of the people's struggle for their national self-awareness and independence. All these problems formed the content and theme of the book product.*

*Based on the above general ideas, in this article, the work of Professor B.Allahverdiyev is analyzed in a comprehensive manner, with reference to his irreplaceable merits in the field of book studies and publishing, referring to the works of local authors.*

***Keywords:*** *Publishing in Azerbaijan, Professor Bayram Allahverdiyev, book science, bookwork, publishing, book.*

**Севда Фейруз кызы Кулиева**
*Бакинский государственный университет*
*Преподаватель кафедры «Редакционно-издательское дело»,*

*Доктор философии по филологии*
***Электронная почта:*** sevdaquliyeva@bsu.edu.az
*https://orcid.org/0000-0003-1161-6110*

# УЧЕНЫЙ, ПОСВЯТИВШИЙ СВОЮ ЖИЗНЬ КНИГАМ И КНИЖНОМУ ДЕЛУ

***Резюме:*** *Профессор Байрам Аллахвердиев (1938-2019) - выдающийся ученый, внесший большой вклад в развитие науки о книговедении в Азербайджане. Его исследования были направлены на глубокое изучение корней книговедения, что позволило достичь значительных научных результатов. В своих научных статьях Аллахвердиев подчеркивает необходимость пересмотра истории книги с точки зрения нового национального мышления о независимости, а также ее изучения на основе национальных и общечеловеческих ценностей. Согласно его взглядам, историческое богатство и национальное самосознание азербайджанской книги особенно проявились на рубеже XX и XXI веков. Этот период занимает особое место в истории книги, отражая борьбу народа за независимость и процесс самопознания. В данной статье творчество профессора Аллахвердиева анализируется комплексно, с упоминанием его незаменимых заслуг в области книговедения и издательского дела, ссылаясь на работы местных авторов.*

***Ключевые слова:*** *Издательское дело в Азербайджане, профессор Байрам Аллахвердиев, книговедение, книжное дело, издательское дело, книга.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 20.02.2024; çapa qəbul edilib – 01.04.2024.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmi**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

=====================================================

**UOT/UDC/УДК** ***338***
DOI 10.5281/zenodo.16964290

**Kamran Nurəddin oğlu Abdullayev**
*Azərbaycan Respublikası ETN-nin İqtisadiyyat İnstitutunun*
*"Xidmət sferasının iqtisadiyyatı" şöbəsinin a.e.i.,*
*İqtisad üzrə fəlsəfə doktoru, dosent*
***E-mail:*** xazar_baki@mail.ru
*https://orcid.org/0000-0003-4901-4342*

# AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT-LOGİSTİKA XİDMƏTLƏRİ SEKTORUNDA DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

***Xülasə:*** *Bu məqalədə Azərbaycan Respublikasının nəqliyyat-logistika xidmətləri sektorunda dövlət-özəl tərəfdaşlığının səmərəliliyinin artırılması istiqamətləri təhlil edilmişdir. Aparılmış təhlillər onu göstərir ki, nəqliyyat-logistika sahəsinin inkişaf etdirilməsi ölkənin nəqliyyat-tranzit potensialının genişlənməsinə, ÜDM-in həcminin artmasına səbəb olur. Beynəlxalq təcrübə onu göstərir ki, nəqliyyat-logistika sektorunun inkişafı ölkənin nəqliyyat şirkətlərinin yük və sərnişin daşımalarının həcminin artmasına müsbət təsir edir.*

*Məqalədə mövcud problemlər araşdırılımış, onların aradan qaldırılması istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *Nəqliyyat, logistika, tranzit, daşıma, rəqabət, investisiya, özəl sektor.*

## GİRİŞ

İnkişaf etmiş dünya ölkələrində nəqliyyat sektoru üzrə beynəlxalq inteqrasiya proseslərinin gücləndiyi bir şəraitdə iqtisadi baxımdan nəqliyyat-

logistika xidmətlərinin səmərəliliyin qiymətləndirilməsində müxtəlif təyinatlı yüklərin, o cümlədən sərnişinlərin daşınmasında hər bir nəqliyyat növü üzrə ümumi nəqliyyat xərclərinin (əsasən, qısa çatdırılma vaxtı ərzində) minimuma endirilməsi, ən qısa daşıma marşrutunun seçilməsi, təhlükəsizliyin təmini və s. mühüm şərt hesab olunur. Müasir dövrdə nəqliyyat-logistika xidmətləri nəqliyyat sektorunun rəqabət imkanlarını müəyyən edə bilir.

Nəqliyyat-logistika xidmətləri dedikdə müştəri tərəfindən sifariş edilmiş məhsulların müqavilə üzrə ən qısa nəqliyyat marşrutları ilə təyinat məntəqəsinə ən az xərc çəkilməklə çatdırılması prosesidir. Ölkəmizdə 2016-cı ildə qəbul olunmuş "Azərbaycan Respublikasında Logistika və Ticarətin inkişafına dair Strateji Yol Xəritəsində" dəmir yolu, dəniz, hava, avtomobil nəqliyyatı üzrə nəqliyyat-logistika xidmətləri üzrə dövlət-özə tərəfdaşlıq modelinin, o cümlədən özəl sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin zəruri olduğu qarşıdakı illərdə əsas hədəf kimi qoyularaq ətraflı əsaslandırılsa da, son illər bu istiqamətdə ciddi dəyişikliklərə səbəb olan tədbirlər həyata keçirilməmişdir *(Azərbaycan, 2016)*. Bundan başqa qeyd olunan sənəddə ölkənin nəqliyyat tranzit dəhlizlərindən istifadənin səmərəliliyinin yüksəldilməsinin yaxın dövrlərdə vacibliyi də qeyd olunmuşdur. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişafı strategiyası"nda "Zəngəzur" dəhlizi istiqamətində nəqliyyat kommunikasiya layihələrinin inkişaf etdirilməsi, nəqliyyat-logistika mərkəzlərinin və xidmətlərin fəaliyyət dairəsinin genişləndirilməsi, ayrı-ayrı nəqliyyat növləri üzrə daşıma həcminin və tranzit gəlirlərinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur *(Azərbaycan, 2022)*.

## MÜZAKİRƏ

Aparılmış tədqiqatda nəqliyyat sektoru üzrə statistik informasiyaların sistemli təhlili, müqayisə, analitik ümumiləşdirmə kimi təhlil metodlarından istifadə edilmişdir. Bundan başqa nəqliyyat sektoru üzrə AR DSK-nin, Dünya Bankının, Dünya İqtisadi Forumunun və s. statistik hesabatlarından istifadə olunmuşdur.

***Nəqliyyat-logistika xidmətləri sahəsində dünya ölkələrində və Azərbaycanda müasir vəziyyətin qiymətləndirilməsi***

Bütün dünyada nəqliyyat-logistika xidmətlərinin dəyəri orta hesabla 2,7-3 trlyn. ABŞ dolları həcmində qiymətləndirilir. Bu göstərici bütün dünya üzrə orta hesabla ÜDM-in 7-10%-ni təşkil edir *(Транспортная, 2016)*.




**Qrafik 1.** ***Azərbaycan və bəzi dünya ölkələrində orta hesabla ÜDM-də nəqliyyat-logistika sahəsi üzrə payının (faizlə) müqayisəsi*** *(Transport, 2024)*

Əksər inkişaf etmiş ölkələrdə nəqliyyat-logistika sektorunun payı orta hesabla ÜDM-in 14%-nə kimi təşkil edə bilir. Məsələn, 2023-cü ildə Azərbaycanda ÜDM-un 6,2%-i nəqliyyat-logistika sektorunun payı 6,2% təşkil etmişdir. Məsələn, Qazaxıstanda son illər orta hesabla bu göstərici 8%, İrlandiyada 14,%, Almaniyada 13% təşkil edir (bax: Qrafik 1).

Dünya Bankı tərəfindən və 2014-cü ilə olan son illik logistik səmərəlilik göstəricilərinin (LSG) strukturuna görə, Azərbaycan 2,45 bal ilə 160 ölkə arasında 128-ci yerdə qərar tutmuşdur. Bu reytinq 6 parametr üzrə təşkil olunmuşdur : gömrük fəaliyyəti, 2,57 bal (82-ci yer), infrastruktur 2,71 bal (67-ci yer), beynəlxalq daşımalar 2,57 bal (112-ci yer), logistikanın kompetentliyi və keyfiyyəti 2,14 (148-ci yer), marşrutların qeydə alınması və izlənilməsi 2,14 bal (142-ci yer) (bax: Cədvəl 1).

**Cədvəl 1.** ***2014-cü il üzrə Azərbaycan Respublikasının logistik səmərəlilik göstəriciləri***

| Logistik səmərəlilik göstəriciləri | Ümimi ballar | 2014-cü il üzrə |
|---|---|---|
| 160 ölkə arasında Azərbaycan Respublikasının LSG-si | 2,45 bal | 128-ci yer |
| Gömrük fəaliyyəti (Azərbaycan) | 2,57 bal | 82-ci yer |
| İnfrastruktur (Azərbaycan) | 2,71 bal | 67-ci yer |

| | | |
|---|---|---|
| Beynəlxalq daşımalar | 2,57 bal | 112-ci yer |
| Logistikanın kompetentliyi və keyfiyyəti | 2,14 bal | 148-ci yer |
| Marşrutların qeydə alınması və izlənilməsi | 2,14 bal | 147-ci yer |
| Çatdırılmanın tezliyi | 2,57 bal | 142-ci yer |

Aparılmış təhlil onu təsdiq edir ki, Azərbaycanın LSG-ləri üzrə beynəlxalq reytinq göstəriciləri digər postsovet məkanı ölkələrlə müqayisədə aşağıdır və ümumi sıralamada aşağı yerlərdən birini tutur (bax: Qrafik 1).




**Qrafik 2.** ***Azərbaycanın, regional qonşu və türkdilli dövlətlərin 2014-cü il üzrə Logistik Səmərəlilik Göstəricilərinin 1-5 ballıq şkala əsasında müqayisəsi*** *(International, 2014)*

2014-cü ildə yalnız LSG üzrə Azərbaycan Özbəkistan, Qırğızıstan, Türkmənistandan qabaqda olmuşdur. Gürcüstan, Qazaxıstan, Macarıstan, Tacikistan bu göstəriciyə görə Azərbaycandan qabaqda olmuşdur (bax: Qrafik 2).

Təhlildən göründüyü kimi, Azərbaycanda ayrı-ayrı nəqliyyat növlərinin dövlət inhisarında olması (avtomobil nəqliyyatı istisna olmaqla), onların səmərəli fəaliyyət göstərməməsi, gömrük keçidlərində və beynəlxalq daşımalarda ləngimələrin olması bu sahənin inkişafını ləngidən əsas amillərdir. Məhz buna görə də nəqliyyat sektoru üzrə dövlət-özəl, yaxud özəl müəssisələrin yaradılması və inkişaf etdirilməsi bu sahənin davamlı inkişafını təmin edə bilər.




**Qrafik 3.** ***Azərbaycanın (LSG-2014), regional qonşu və türkdilli dövlətlərin 1-5 ballıq şkala əsasında Logistik Səmərəlilik Göstəriciləri (LSG-2023) üzrə müqayisəsi*** *(Trade, 2023)*

Aparılmış təhlil onu təsdiq edir ki, digər postsovet məkanı ölkələri 2014-cü illə müqayisədə 2023-cü ildə LSG-ləri üzrə məsələn, Gürcüstan, Qazaxıstan, Macarıstan, eləcə də türk dilli dövlətlər məsələn, Qazaxıstan, Türkiyə, Özbəkistan, Qırğızıstan reytinq yeri üzrə irəliləyiş əldə etmişlər (bax: Qrafik 3). 2015-2023-cü illər ərzində Azərbaycan Respublikasının son illər gömrük fəaliyyəti, infrastruktur, beynəlxalq daşımalar, logistika xidmətlərinin keyfiyyəti, daşıma marşrutlarının qeydə alınması və izlənilməsi, çatdırılmanın tezliyi üzrə göstəricilər aşağı olduğu üçün bu beynəlxalq reytinqdə olmamışdır.

***Azərbaycanda nəqliyyat-logistika xidmətlərinin perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi***

Təhlildən də göründüyü kimi Azərbaycanda ayrı-ayrı nəqliyyat növlərinin dövlət inhisarında olması (avtomobil nəqliyyatı istisna olmaqla), onların səmərəli fəaliyyət göstərməməsi, özəl sahibkarlıq fəaliyyətinin nəqliyyat sektorunda təmin olunmaması, gömrük fəaliyyətində keçid prosesinin ləng olması LSG-nin reytinq göstəricilərinin inkişafını ləngidən əsas amillərdir. Gürcüstan və Qazaxıstanda hava, dəniz, dəmir yol nəqliyyatında, dəniz və hava limanlarında özəl sektorun təmsil olunması LSG üzrə beynəlxalq reytinq göstəricilərinin artmasına səbəb olur. Məhz buna görə də Azərbaycanda nəqliyyat-logistika üzrə dövlət-özəl, yaxud özəl müəssisələrin yaradılması və inkişaf etdirilməsi bu sahənin davamlı inkişafını və LSG üzrə beynəlxalq reytinq hesabatlarında yenidən iştirakımızı təmin edə bilər.

**Cədvəl 2.** ***Azərbaycan Respublikasında nəqliyyat-logistika sektorunun yaxın dövrlərdə daşıma xidmətləri üzrə mümkün***

***potensialının proqnoz qiymətləndirilməsi*** *(Transport, 2024)*

| | |
|---|---|
| Azərbaycanın nəqliyyat sektorunda yük daşınması (real statistik göstəricilər) | 1990-cı il - 565,6 mln. ton<br>2023-cü il - 229,2 mln. ton |
| Logistika və ticarətin inkişafına dair SYX-də beynəlxalq nəqliyyat dəhlizlərində ("Şimal-Cənub", "Şərq-Qərb", "Orta Dəhliz" və s. istiqamətlərdə) istifadə etməklə ölkəmizin özəl sektor cəlb edilməklə əlavə yük daşıma potensialı (avtomobil, dəmir yol, dəniz, hava nəqliyyatı üzrə) | 230 mln. ton (əlavə potensial) |

Aparılmış təhlillər onu göstərir ki, Azərbaycanın nəqliyyat sektorunda 1990-cı ildə 565,6 mln. ton yük daşınmışdırsa, 2023-cü ildə bu göstərici 2 dəfəyə qədər azalaraq 229,2 mln. ton olmuşdur (bax: Cədvəl 2). Ölkəmizin Logistika və ticarətin inkişafına dair SYX-də beynəlxalq nəqliyyat dəhlizlərindən (Şimal-Cənub, Şərq-Qərb, Orta Dəhliz və s.) ölkəmizin istifadə etməklə əlavə yük daşıma potensialı nəqliyyat sektoru üzrə 230 mln. ton olması qeyd olunmuşdur *(Azərbaycan, 2016)*. Azərbaycanın nəqliyyat sektoru üzrə tranzit daşımalar da daxil olmaqla ümumi yük daşıma potensialı 459,2 mln. ton təşkil edə bilər.

## NƏTİCƏ

Aparılmış təhlillər onu göstərir ki, nəqliyyat sektorunda yalnız dövlət nəqliyyat şirkətlərinin dəstəyi ilə perspektiv dövr ərzində yük daşınması potensialından tam istifadə etmək mümkün deyildir. Bunun üçün mütləq dövlət-özəl tərəfdaşlıq modelinə əsaslnanan nəqliyyat şirlətlərinin, eyni zamanda özəl nəqliyyat şirkətlərinin olması vacibdir. Aparılmış təhlil onu göstərir ki, nəqliyyat sektorunda yalnız dövlət nəqliyyat şirkətlərinin dəstəyi ilə perspektiv dövr ərzində yük daşınması potensialından tam istifadə etmək mümkün deyildir. Bunyn üçün mütləq dövlət-özəl tərəfdaşlıq modelinə əsaslnanan nəqliyyat şirlətlərinin, eyni zamanda özəl nəqliyyat şirkətlərinin olması vacibdir. Ölkəmizin işğaldan azad olunmuş ərazilərində Naxçıvan və Azərbaycan arasında "Zəngəzur" dəhlizinin açılması prosesini sürətləndirmək üçün qonşu regional dövlətlərin də bu proseslərə cəlb edilməsi zəruridir. Ölkəmizin Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Tbilis-Qars dəmir yol xəttinin, işğalan azad olmuş ərazilərdə yeni hava limanlarının, Ələt azad iqtisadi zonasının, beynəlxalq standartlara uyğun

avtomobil yol infrastrukturunun, müasir nəqliyyat logistika sahəsinin olmasını nəzərə alaraq və onlardan səmərəli istifadə etmək imkanlarının artırılması istiqamətində səmərəli tədbirlər həyata keçirilməlidir. Beynəlxalq tranzit nəqliyyat dəhlizlərinin ölkəmizdən keçməsi və onların şaxələndirilməsi imkanlarının dəstəklənməsi, "Zəngəzur" dəhlizinin açılma ehtimalının yüksək olmasını nəzərə alaraq ölkəmizdən keçən "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq nəqliyyat tranzit dəhlizinin fəaliyyətinin səmərəliliyinin və daşımaların həcminin artırılması imkanlarının stimullaşdırılması məqsədəuyğun hesab olunur.

Nəticə olaraq, ölkəmizin nəqliyyat-logistika xidmətləri üzrə potensialının artırılması üçün, aşağıdakı zəruri tədbirlərin həyata keçirilməsini tövsiyə edirik:

- Ölkəmizin işğaldan azad olunmuş ərazilərində, xüsusilə Naxçıvan iqtisadi rayonu ilə Şərqi Zəngəzur iqtisadi rayonu arasında "Zəngəzur" dəhlizinin açılması prosesini sürətləndirmək üçün, qonşu regional dövlətlərin maraqlı tərəf kimi cəlb edilməsi;
- Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, işğalan azad olmuş ərazilərdə yeni hava limanlarının, Ələt azad iqtisadi zonasının, ölkəmizin beynəlxalq standartlara uyğun avtomobil yol infrastrukturunun, müasir nəqliyyat-logistika sahəsinin özəl sektorla birgə səmərəli idarəetmə imkanlarının artırılması;
- Beynəlxalq tranzit nəqliyyat dəhlizlərinin ölkəmizdən keçməsi və onların şaxələndirilməsi imkanlarının dəstəklənməsi, "Zəngəzur" dəhlizinin açılma ehtimalının yüksək olmasını nəzərə alaraq ölkəmizdən keçən "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq nəqliyyat tranzit dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və daşımaların həcminin artırılması imkanlarının stimullaşdırılması;
- Çində, digər region dövlətlərində ticarət dövriyyəsinin və ixrac həcminin Avropa Birliyi ölkələri üzrə artmasını nəzərə alaraq ölkəmizdən bu istiqamətdə keçən beynəlxalq nəqliyyat dəhlizlərində daşıma tariflərinə güzəştlərin tətbiqi və onun cəlbediciliyinin artırılması;
- Dövlət inhisarında olan nəqliyyat şirkətlərinin və logistika sahəsinin dövlət-özəl tərəfdaşlığı üzrə idarəetmənin 51% dövlət və 49% özəl sektor olmaqla təşkili;
- Beynəlxalq nəqliyyat dəhlizləri üzrə, məsələn, "Avropa-Qafqaz-Asiya", "Şimal-Cənub" nəqliyyat dəhlizlərində daşımaların həcminin, ölkəmizin bu daşımalarında payının artırılması üçün region dövlətlərlə, iri istehsal şirkətləri ilə razılaşmaların əldə olunması;
- Dəmir yolu, dəniz, hava, avtomobil nəqliyyatı, logistika

infrastrukturu üzrə dövlət-özəl tərəfdaşlığına özəl investisiyaların cəlbinin stimullaşdırılması;

- Nəqliyyat sahəsində milli qanunvericilikdə dövlət-özəl tərəfdaşlıq modelinin inkişafı məsələsinin təsbit olunması;
- Nəqliyyat-logistika mərkəzlərinin, infrastruktur sahələrinin idarə olunmasında dövlət-özəl tərəfdaşlıq modelinin tətbiq edilməsi;
- Dəniz, hava, dəmir yolu, avtomobil şirkətləri (infrastruktur sahələri də daxil olmaqla, limanlar, aeroportlar, vağzallar və s.) dövlət-özəl tərəfdaşlığı əsasında idarəetmə prosesində özünü maliyyələşdirmək üçün müəyyən faiz gəlirliyi təmin edən fərdi istiqrazların, səhmlərin dövriyyəyə buraxılması;
- Nəqliyyat dəhlizlərində nəqliyyat-logistika xidmətləri sahəsində dövlət-özəl tərəfdaşlığına malik şirkətlər tərəfindən intermodal daşımaların həcminin artırılması;
- Azərbaycan Respublikasının ərazisindən keçən nəqliyyat dəhlizləri üzrə daşıma xərcləri digər regional dövlətlərdən keçən dəhlizlərin daşıma xərclərindən daha aşağı və sərfəli (səmərəli) olmalıdır;
- Ölkənin qeyri-neft sektoru üzrə fəaliyyət göstərən müəssisələrin rəqabət qabiliyyəti və ixrac imkanları artırılmalıdır. Ölkəyə idxal olunan məhsulların daşınmasında milli nəqliyyat-logistika şirkətləri iştirak etməlidir. Daşıma xidmətlərinin həyata keçirilməsində nəqliyyat-logistika xidmətləri üzrə xərclərin azaldılmasına daha çox diqqət ayrılmalıdır.

## ƏDƏBİYYAT

*Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. (2016).* Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC. İstifadə edilmişdir: 2 mart, 2024 (https://azertag.az/store/files/Strateji_yol_xeritesi/_Logistika_v%C9%99_ticar%C9%99tin_inki%C5%9Faf%C4%B1na_dair_Strateji_Yol_X%C9%99rit%C9%99si_.pdf).

*Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. (2022).* İstifadə edilmişdir: 3 mart, 2024 (https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf).

*International Logistics Performance Index. (2014).* İstifadə edilmişdir: 6 mart, 2024 (https://lpi.worldbank.org/2014).

*Trade logistics in global economy. (2023).* İstifadə edilmişdir: 5 mart, 2024

(https://lpi.worldbank.org/sites/default/files/2023-04/LPI_2023_report_with_layout.pdf).

*Transport in Azerbaijan. (2024).* Statistical yearbook. State Statistical Committee of the Republic of Azerbaijan. Baku: "AZMEGA GROUP" LLC.

*Транспортная логистика сегодня — это ключевой компонент в реализации ГП ФИИР — Ерхат Искалиев. (2016).* İstifadə edilmişdir: 4 mart, 2024 (https://kazlogistics.kz/ru/library/analytic/9).

**Kamran Nureddin oglu Abdullayev**
*Senior researcher of the department*
*"Economics of the service sector" of the*
*Institute of Economy of the Ministry of*
*Science and Education of the Republic of Azerbaijan,*
*Doctor of Philosophy in Economics, docent*
***E-mail:*** xazar_baki@mail.ru
*https://orcid.org/0000-0003-4901-4342*

# DIRECTIONS FOR INCREASING THE EFFICIENCY OF PUBLIC-PRIVATE PARTNERSHIP IN THE SECTOR OF TRANSPORT AND LOGISTICS SERVICES OF THE REPUBLIC OF AZERBAIJAN

***Abstract:*** *This article analyzes the directions of increasing the efficiency of public-private partnership in the field of transport and logistics services in the Republic of Azerbaijan. The conducted analyses show that the development of the transport and logistics sector leads to the expansion of the country's transport and transit potential and an increase in GDP. International experience shows that the development of the transport and logistics sector has a positive effect on increasing the volume of freight and passenger transportation of the country's transport companies.*

*The article examines existing problems and puts forward proposals and recommendations for their elimination.*

***Keywords:*** *Transport, logistics, transit, transportation, competition, investment, private sector.*

**Кямран Нуреддин оглы Абдуллаев**
*В.н.с. отдела «Экономика сферы услуг»*
*Института экономики Министерства*

*науки и образования Азербайджанской Республики,*
*Доктор философии по экономике, доцент*
***E-mail:*** xazar_baki@mail.ru
*https://orcid.org/0000-0003-4901-4342*

# НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА В СЕКТОРЕ ТРАНСПОРТНО-ЛОГИСТИЧЕСКИХ УСЛУГ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Резюме:*** *В данной статье анализируются направления повышения эффективности государственно-частного партнерства в сфере транспортных и логистических услуг Азербайджанской Республики. Проведенные анализы показывают, что развитие транспортно-логистического сектора приводит к расширению транспортно-транзитного потенциала страны и увеличению объема ВВП. Международный опыт показывает, что развитие транспортно-логистического сектора положительно влияет на увеличение объемов грузо- и пассажироперевозок транспортных компаний страны.*

*В статье рассматриваются существующие проблемы и выдвигаются предложения и рекомендации по их устранению.*

***Ключевые слова:*** *Транспорт, логистика, транзит, перевозки, конкуренция, инвестиции, частный сектор.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 11.03.2024; çapa qəbul edilib – 04.04.2024.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmi**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

==================================================

**UOT/UDC/УДК** ***351.71*** DOI 10.5281/zenodo.16964570

**Konül İlqar qızı Məmmədova**
*Bakı Şəhər Statistika İdarəsi, Maliyyə və təsərrüfat sektoru, Aparıcı məsləhətçi*
***E-mail:*** gonul@mail.ru
*https://orcid.org/0009-0007-2311-3162*

# POSTKONFLİKT ƏRAZİLƏRDƏ SOSİAL İNFRASTRUKTURUN YENİDƏN QURULMASI VƏ REGİONLARIN BƏRPASI

***Xülasə:*** *Münaqişədən sonrakı dövrdə regionların sosial-iqtisadi dirçəlişi və dayanıqlı (davamlı) inkişafında sosial infrastrukturun bərpası mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən məqalədə postkonflikt ərazilərdə təhsil, səhiyyə, nəqliyyat, kommunal xidmətlər və sosial təminat sahələrinin yenidən qurulması və inkişafı təhlil edilir, dövlət proqramları, investisiya layihələri və institusional mexanizmlər əsasında aparılan bərpa işləri qiymətləndirilir. Eyni zamanda infrastrukturun yerli əhalinin rifahının yaxşılaşdırılmasında və regionların iqtisadi cəlbediciliyinin artırılmasındakı rolu vurğulanır, həmçinin postkonflikt şəraitində davamlı və inklüziv inkişaf üçün sosial infrastrukturun planlı və kompleks yanaşma ilə yenidən qurulmasının vacibliyi şərh olunur.*

***Açar sözlər:*** *Postkonflikt ərazilər, sosial infrastruktur, regional inkişaf, davamlı inkişaf, dövlət siyasəti, sosial rifah.*

## GİRİŞ

Postkonflikt dövründə bərpa strategiyalarının əsas məqsədi dayanıqlı iqtisadi artım və insanların həyat şəraitinin yaxşılaşdırılmasına nail olmaqdır. Keçmiş münaqişə yaşayan ölkələrin məsələn, İraq, Əfqanıstan, Kosova və Xorvatiya kimi nümunələrin iqtisadi inkişafını təhlil edərkən aydın olur ki, onlar sabit və zəif inkişaf etmiş ölkələrə nisbətən daha ciddi

çətinliklərlə üzləşirlər. Bu çətinliklərə iqtisadi geriləmə, yüksək inflyasiya, fiskal defisitlər, dövlət borcunun artması, məhv olmuş fiziki və sosial infrastruktur, iqtisadi stimulların itirilməsi, geniş yayılan yoxsulluq və işsizlik aiddir. Azərbaycanın "təhlükəsizlik yastığı" və güclü siyasi iradəsi bu çətinliklərin qarşısını almaq və ölkənin inkişaf yolunu asanlaşdırmaq üçün vacib bir rol oynayır.

***Dünya praktikasında yeni iqtisadi siyasət strategiyası***

Dünya praktikasında postkonflikt dövründə büdcə resurslarının düzgün şəkildə yönləndirilməsi və prioritetlərin yenidən müəyyən edilməsi geniş yayılıb. Azərbaycanda da bu yanaşmanın tətbiqi daha effektli nəticələr verə bilər. 1971-ci ildə Malayziyada qəbul olunan Yeni İqtisadi Siyasət strategiyası iki əsas prinsipə əsaslanırdı:

- ❖ Yoxsulluğun azaldılması;
- ❖ İqtisadi qeyri-sabitliyin aradan qaldırılması üçün cəmiyyətin struktur dəyişikliklərinin sürətləndirilməsi.

## MÜZAKİRƏ

Dünya təcrübəsinə görə ilk növbədə daxili insan kapitalı qiymətləndirilməlidir ki, bu da keçmiş münaqişə bölgəsinin əhalisini əhatə edir. Bu iqtisadi subyektlər xarici maliyyə dəstəyi üçün passiv şəkildə gözləməməlidir. Əksinə, onlar daha iradəli və işgüzar yanaşaraq özləri də əlavə dəyər yaratmağa can atmalıdırlar. İnkişaf strategiyalarının sosial dəyişkənlikləri və institutsional prosesləri dərin şəkildə nəzərdən keçirməsi, onların daha davamlı olmasına şərait yaradır. BMT-nin İnkişaf Proqramına görə yerli iqtisadi subyektlər bərpa prosesində mərkəzi rol oynamalıdırlar.

Postkonflikt ölkələrin təcrübəsindən çıxış edərək yeni iqtisadi inkişaf strategiyası makroiqtisadi sabitliyin təmin edilməsi üçün aşağıdakı prinsipləri nəzərə almalıdır: iqtisadi islahatlar mərhələli şəkildə və ardıcıl həyata keçirilməli, özəl sektora yatırımların təşviqi əsas prioritet olmalı, iqtisadi canlanma üçün monetar və fiskal siyasətlər yenidən qurulmalı, bərpa prosesinin maliyyələşdirilməsi ilə yanaşı məşğulluğun artırılması və fiskal dayanıqlığın təmin olunması fiskal siyasətin əsas hədəfi olmalıdır, fərdlər və ev təsərrüfatları üçün bütün sosial xidmətlər bərpa edilməli, beynəlxalq yardımların və qrantların idarə edilməsi şəffaf və səmərəli olmalıdır, donor koordinasiya mərkəzi düzgün şəkildə qurulmalı və strategiyanın icrasını dəstəkləyən institutlar formalaşdırılmalıdır.

İkinci dünya müharibəsindən sonra Fransa və İtaliya iqtisadi bərpa proseslərini Marşal Planı əsasında həyata keçirmişdir. Marşal planı çərçivəsində verilən yardımlar, idxal olunan mallar və xidmətlərlə bağlı olmaqla yanaşı, ABŞ-ın büdcə və xərclərini təsdiqləməsi ilə şərtləndirilirdi.

Lakin İtaliya və Fransa bu proqramın şərtlərindən və gözləntilərindən müəyyən dərəcədə kənara çıxaraq ölkələrinin prioritet sahələrini daha çox maliyyələşdirmək yolu ilə uğurlu postkonflikt bərpa siyasətləri həyata keçirmişlər.

Bu mərhələlərdə postkonflikt bərpa modellərinin qurulmasında beynəlxalq təşkilatların təcrübəsindən istifadə etmək böyük əhəmiyyət kəsb edir. Effektiv bir postkonflikt bərpa modelinin həyata keçirilməsi üçün yüksək keyfiyyətli institusional mühit, əlçatan maliyyə mənbələri və islahatların mərhələli şəkildə tətbiqi əsas amillərdən biridir.

Regionda təhlükəsizlik, sabitlik, rifah və qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi, iqtisadi və ticarət əlaqələrinin inkişafı, eləcə də milli və multikultural dəyərlərin möhkəmləndirilməsi Azərbaycanın regional iqtisadiyyatının ümumi strukturunun formalaşmasında mühüm rol oynayacaqdır. Bu perspektivlər əsasında sosialyönümlü bazar iqtisadiyyatının inkişafı 2030-cu ilə qədər Azərbaycanı yüksək sosial rifah səviyyəsinə malik bir ölkəyə çevirməyi hədəfləyir. Uzunmüddətli və davamlı inkişaf üçün cəmiyyət, biznes və dövlətin effektiv əməkdaşlığını təmin edən üçlü münasibət gücləndiriləcəkdir. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi, iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə yönəldilməsini təmin edəcəkdir. Strateji Yol Xəritələrində ölkə iqtisadiyyatının inkişafı ilə bağlı rəqəmsallaşma və İKT infrastrukturunun təkmilləşdirilməsi, eləcə də İKT sənayesi potensialının artırılması da əsas məqsədlərdən biri olaraq göstərilmişdir *(Milli, 2016)*. 2020-ci ildən etibarən dünyada iqtisadiyyata ciddi ziyan vuran koronavirus pandemiyası iqtisadiyyatın rəqəmsallaşması proseslərinin vacibliyini və əvəzolunmazlığını bir daha təsdiq etdi. Bu səbəbdən ölkə rəhbərliyi bu sahədəki fəaliyyətləri tənzimləmək üçün müvafiq sənəd qəbul etmişdir.

Poskonflikt ərazilərin sosial-iqtisadi inkişafı İşğaldan azad edilmiş postkonflikt ərazilərin yenidən bərpası müasir sosial-mədəni, kommunikasiya və nəqliyyat infrastrukturunun qurulması üçün dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilmiş və inkişaf konsepsiyası hazırlanmışdır. Ərazilərin sürətlə bərpası və müvafiq infrastrukturun yaradılması ilə yanaşı, bu ərazilərin Azərbaycan iqtisadiyyatına inteqrasiyası istiqamətində də əhəmiyyətli addımlar atılır. Şəhər və kəndlərin bərpası, bu ərazilərdə müasir infrastrukturun – elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal xidmətlər və digər vacib sahələrin inkişaf etdirilməsi, həmçinin mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat

ayrılmışdır. Bu tədbirlər həmçinin yerli və xarici investisiyaların cəlb olunmasına şərait yaratacaq və qeyri-neft sektorunun inkişafını dəstəkləyəcəkdir. İşğaldan azad olunmuş ərazilərdə beynəlxalq təcrübənin nəzərə alınması və ən müasir innovativ texnologiyalarla “ağıllı kənd” və “ağıllı şəhər”lərin yaradılması ölkə Prezidentinin tapşırıqları əsasında icra edilir.

Ölkənin şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin və səmərəliliyinin artırılması, həmçinin informasiya texnologiyalarının tətbiqi ilə bu xidmətlərin idarə olunması və mövcud resursların effektiv istifadəsi dayanıqlı inkişafın prioritet istiqamətlərindəndir. Bu məqsədlə 19 aprel 2021-ci ildə ölkə rəhbərliyi “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının hazırlanması ilə bağlı sərəncam vermişdir *(Milli, 2016)*. Müasir telekommunikasiya texnologiyaları, sensorlar, "Böyükhəcmli məlumatlar" (Big Data) və süni intellekt, eləcə də digər rəqəmsal innovasiyalar sosial-iqtisadi əlaqələri daha məhsuldar və səmərəli edir, eyni zamanda iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Bu texnologiyaların inteqrasiya olunması, rəqəmsal məlumatların toplanması, saxlanılması, işlənməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin artırılmasına geniş imkanlar açır. Nəticə etibarilə, bu texnologiyaların istifadəsi şəhər və kəndlərdə xidmətlərin növbəti inkişaf mərhələsinə, yəni geniş miqyaslı “Ağıllı şəhər” və “Ağıllı kənd” xidmətlərinə keçid üçün zəmin hazırlayır.

“Ağıllı kənd” ideyası dünyada kənd yerlərində həyat şəraitinin yaxşılaşdırılması, urbanizasiyanın qarşısını almaq və kəndlərin daha yaşayış üçün əlverişli hala gətirilməsi məqsədilə irəli sürülmüş bir layihədir. Bu yanaşma ilə kəndlərdə xidmətlərin asanlaşdırılması şəbəkə üzərindən həyata keçirilir. Eyni zamanda kəndlərdə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyərək, insanlara kənddə gəlir əldə etmə imkanı yaradılır. Dövlət xidmətlərinin sadələşdirilməsi və İnternet vasitəsilə təqdim edilməsi kənd sakinlərini yaşadıqları ərazi ilə əlaqələndirir, eyni zamanda onları kiçik sahibkarlar kimi fəaliyyət göstərməyə təşviq edir. Bu model əsasında “Ağıllı kənd”də ağıllı infrastruktur, xidmətlər, təsərrüfat və bizneslə yanaşı, ağıllı dövlət idarəçiliyinin birliyi təmin edilir.

İşğaldan azad olunmuş postkonflikt ərazilərdə müasir həyat tərzinin təmin edilməsi üçün növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması, rəqabətli insan kapitalının inkişafı və müasir innovasiyaların tətbiqi kimi milli

prioritetlərin həyata keçirilməsi gözlənilir. Bu məqsədlə, həmin ərazilər cəmiyyətin ən sağlam və abad yaşayış zonasına çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan əlverişli yaşayış mühiti yaradılmalı, yeni ərazilər müasir infrastruktura malik olmalı, həmçinin əhalinin zəruri xidmətlərə və yüksək keyfiyyətli həyat tərzinə asanlıqla çatması təmin edilməlidir.

Ölkə iqtisadiyyatı yaxın gələcəkdə müxtəlif dəyişikliklərin təsiri altında inkişaf edəcəkdir. Qlobal iqtisadiyyatda böyük güc mərkəzlərinin yeni inkişaf edən bazarlara yönəlməsi, texnoloji yeniliklərin iqtisadiyyata təsiri, geosiyasi dəyişikliklər və neft-qaz qiymətlərinin fluktuasiyaları Azərbaycanın qarşılaşacağı əhəmiyyətli məsələlər sırasındadır. Bu amillər Azərbaycan iqtisadiyyatı üçün vacib və proqnozlaşdırılan təsirlərdən sayılır.

***İnnovasiyalı inkişaf modeli***

Azərbaycan innovasiya əsaslı inkişaf modelinə keçid edəcəkdir. Əhalinin adambaşına düşən real gəlirlərinin hər il təxminən 5 faiz artması gözlənilir və bu nəticədə Dünya Bankının təsnifatına əsasən Azərbaycan yüksək gəlirli ölkə statusu əldə edəcəkdir. Bu inkişafların nəticəsində 2025-ci ildən sonra ölkə adambaşına düşən gəlir baxımından Şərqi Avropa ölkələrinə yaxınlaşacaqdır. Azərbaycanın elmi potensialı isə qlobal tendensiyalara uyğun şəkildə yeni texnologiyaların inkişafına dəstək verəcəkdir.

Yeni iqtisadi sektorların inkişafı ilə əlaqədar işlər davamlı şəkildə həyata keçirilir. Regionların ÜDM-dəki payının artırılması ölkənin ümumi iqtisadi inkişafına yeni töhfələr verəcəkdir. İnnovativ texnologiyalarla zənginləşən ənənəvi iqtisadiyyatın inkişafı, müasir informasiya və biliklər iqtisadiyyatına keçidi sürətləndirəcəkdir. Yeni texnologiyaların tətbiqi mövcud iqtisadi sahələrin inkişafına müsbət təsir göstərərək, yeni formalaşan sahələrdə də artım yaradacaqdır.

Bölgələrdə yeni iqtisadi sektorların formalaşması və iş yerlərinin yaranması əhalinin həyat səviyyəsini yüksəldəcəkdir. Nəticə etibarilə ölkə üzrə adambaşına düşən ÜDM-nin artacağı və bununla paralel olaraq Qarabağ və ətraf rayonlarda qeyri-neft sektoru ilə yanaşı ənənəvi sahələrin də inkişaf edəcəyi gözlənilir. Azərbaycanın iqtisadiyyatı qlobal səviyyədə daha da yüksələcək və dünya bazarlarında rəqabət qabiliyyətli istehsalın artırılmasına yeni imkanlar yaradılacaqdır *(Qarabağ, 2021)*.

Azərbaycanda iqtisadiyyatın ənənəvi sahələrinin müasir tələblərə uyğun inkişaf etdirilməsi ilə yanaşı, yeni texnoloji innovasiya sektorları da formalaşır. Mobil sistemlər, kosmik texnologiyalar, big data, bulud və internet texnologiyaları, kiber-fiziki sistemlər və süni intellekt kimi

sahələrdə texnoloji yeniliklərin inkişafı və bu sahələrin formalaşması məsələsi hazırkı dövrün ən aktual məsələlərindən biridir. Bu məsələlərin ölkənin yeni iqtisadi rayonlaşma konsepsiyasında nəzərə alınması əlavə inkişaf imkanlarının yaranmasına səbəb ola bilər.

Hazırda innovasiyalara və biliklərə əsaslanan rəqabətqabiliyyətli, davamlı və dayanıqlı informasiya iqtisadiyyatı ilə yanaşı rəqəmsal iqtisadiyyatın qurulması informasiya və bilik bazarlarının yaradılması, İKT məhsullarının istehsalı və ölkənin rəqəmsal geriliyinin aradan qaldırılması olduqca vacib məsələlərdən sayılır. İKT sektorunun vəziyyəti ilə bağlı təhlillər göstərir ki, dünya üzrə İKT bazarı ÜDM-nin 6,5%-ni təşkil edir. Bəzi proqnozlara görə 2025-ci ildə bu göstərici dünya üzrə ÜDM-də 9%-ə qədər yüksələ bilər. Son məlumatlara əsasən, ABŞ-da İKT sektorunun ÜDM-dəki payı 6,4%, Yaponiyada isə 6,8% təşkil etmişdir.

Azərbaycanda iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sahələrindən biri olan İKT sektoru təqribən 20-25% orta illik artım tempi ilə hər üç ildən bir iki dəfə artaraq, 1,9 milyard ABŞ dollarını ötüb. Bu sektorun ÜDM-də payı 1,7%-ə, qeyri-neft ÜDM-də isə 3,3%-ə yüksəlmişdir/ Sektora qoyulan investisiyaların ümumi həcmi 2,5 milyard ABŞ dolları təşkil edir. Bu vəsaitin 28%-i dövlət, 72%-i isə yerli və xarici investisiyalardan ibarətdir. Özəl sektorun payı isə 80%-ə çatmışdır. Qeyd etmək lazımdır ki, dünyada ümumi xidmətlər ixracında İKT xidmətlərinin ixracı son onillikdə 10%-dən çox artmışdır.

Hazırkı dövrdə ölkə iqtisadiyyatında istehsal olunan ÜDM əvvəlki illərlə müqayisədə xeyli artaraq 81 milyard manatdan çox olmuşdur *(Rəşid, 2020)*. ÜDM-nin strukturunda qeyri-neft-qaz sektorunun istehsal etdiyi əlavə dəyər 3,5%, neft-qaz sektorunun isə 0,4% artmışdır. ÜDM-nin 41,4 faizi sənaye, 10 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi tikinti, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi isə informasiya və rabitə sahələri ilə bağlıdır. Eyni zamanda məhsul və idxala xalis vergilər ÜDM-in 8,7%-ni təşkil edir. Əhalinin hər nəfərinə düşən ÜDM isə 8247,0 manatdır.

Son dövrlərdə beynəlxalq təşkilatların illik hesabatlarında dünya ölkələrinin İKT, iqtisadiyyat və innovasiya sahələrindəki göstəricilərinin təhlili aparılmış və bu sahələr üzrə indekslər müəyyən edilmişdir. 2020-ci ildə yayımlanan Qlobal İnnovasiya İndeksi hesabatında 130-dan çox ölkədə innovasiyanın effektivliyi qiymətləndirilmişdir. Həmin hesabatda Azərbaycan 82-ci reytinqi ilə 0-100 şkalasında 27.23 bal əldə etmişdir. Bu göstəricilər İKT, İnternetin inkişafı, innovasiya, iqtisadiyyat, sahibkarlıq və

biznes sahələrində yaxşılaşdırma ilə texnoloji innovasiya iqtisadiyyatı sektorlarının inkişafını və fəaliyyətinin səmərəliliyini artıra bilər *(Global, 2020)*.

Ölkənin XXI əsrdəki iqtisadiyyatı innovasiyaya, biliklərə və informasiya texnologiyalarına əsaslanan rəqəmsal texnologiyalarla formalaşır *(Чинаева, 2017)*. Texnoloji innovasiyalar mövcud texnologiyanın və ya yeni inkişaf etdirilən texniki irəliləmələrin əhəmiyyətli yeniliklər yaratdığı sahələrdir. Müasir dövrdə inkişaf edən İKT texnologiyalarına əsaslanan innovasiya iqtisadiyyatı sektorları müxtəlif sahələrdəki inkişafları stimullaşdırır. Bu sahələrə idarəetmədə İKT və informasiya sistemləri; Nou-hau texnologiyaları və sistemləri; istehsal və xidmət prosesləri; marketinq və satış texnologiyaları; innovativ texnologiyalar və ətraf mühitin mühafizəsi texnologiyaları daxildir.

Bundan əlavə işğaldan azad olunmuş ərazilərdə müasir texnologiyaların tətbiqi yeni formalaşan iqtisadi sahələrin inkişafına müsbət təsir göstərməkdədir. İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşması sosial və iqtisadi proseslərə müsbət təsir edərək ölkənin ümumi iqtisadiyyatının səmərəli fəaliyyətini artırmağa kömək edə bilər. Texnoloji innovasiya sahələrinin təhsil, elm və səhiyyə sahələrində tətbiqi, bu sahələrin inkişafına geniş imkanlar yaradacaq və sosial layihələrin həyata keçirilməsi, qeyri-neft sektorunun inkişafı ilə Azərbaycanın dünya miqyasında sosial-iqtisadi imkanlarını artıracaqdır.

Ölkədə sosial infrastrukturun inkişafı və müasir şəhər planlaması ilə əlaqəli görülən işlər, həmçinin əhalinin rifahını təmin edən müxtəlif sektorlarda olan inkişafın əhəmiyyəti gündəmdədir. Son 10 ildə Azərbaycan səhiyyə və təhsildə böyük irəliləyişlər əldə edərək insan kapitalı indeksində 103 ölkə arasında ən böyük irəliləyişə nail olmuş və dünyanın Top-10 ölkəsi arasında yer almışdır. Bu müsbət irəliləyişlər ölkə iqtisadiyyatında və cəmiyyətin həyat keyfiyyətində mühüm dəyişikliklərə səbəb olmuşdur.

Qarabağ bölgəsində sosial infrastrukturun yaradılması, bu istiqamətdə həyata keçirilən proseslər və idarəetmə məsələləri daha da mühüm əhəmiyyət kəsb edir *(Mirzəzadə, 2021)*. Bu məqsədlə əsas vəzifələrdən bəziləri aşağıdakı kimi müəyyənləşdirilə bilər:

<u>İqtisadi dəyişikliklərə uyğunlaşmaq:</u> İqtisadi sistemdəki dinamik dəyişikliklərə uyğun olaraq sosial infrastrukturun tələblərinə cavab verən yeni model və həllərin tətbiqi önəmlidir. Bu iqtisadiyyatda baş verən dəyişikliklərə çevik reaksiya vermək və müvafiq tədbirlərin görülməsini təmin etmək deməkdir.

Sosial infrastrukturun nəzəri təhlili: Sosial infrastrukturun formalaşmasında qarşılaşılan çətinliklər və vəziyyətin təhlili, bu sahədə mövcud olan qanunauyğunluqları və bu infrastrukturun inkişafına təsir edən faktorları başa düşmək üçün dərin araşdırmaların aparılması vacibdir.

İnfrastrukturun vəziyyətinin qiymətləndirilməsi: Qarabağ bölgəsindəki sosial infrastrukturun vəziyyətinin qiymətləndirilməsi, xüsusilə son illərdə baş vermiş hadisələrdən sonra bu infrastrukturun təsirlərinin təhlil edilməsi lazımdır. Artan infrastruktur ehtiyacları və mövcud şəraitdəki dəyişikliklər qiymətləndirilməlidir.

Sosial infrastrukturun fundamental rolu: Müasir şəhərlərin tikintisində sosial infrastruktur mühüm bir rol oynayır. Şəhər planlamasında, insanların həyat tərzinin yaxşılaşdırılmasında və davamlı inkişafın təmin olunmasında bu infrastruktur elementlərinin əhəmiyyəti vurğulanmalıdır.

Yeni standartların tətbiqi: Qarabağ və digər işğaldan azad edilmiş ərazilərdə sosial infrastrukturun yaradılması üçün yeni, müasir standartların qəbul edilməsi vacibdir. Ərazilərin iqlim, coğrafi və iqtisadi xüsusiyyətləri nəzərə alınaraq bu yeni standartlar tətbiq edilməlidir.

Yuxarıda sadalanan məsələlərin həlli və bu sahədəki işlərin düzgün istiqamətə yönləndirilməsi nəticəsində ölkənin sosial infrastrukturunun keyfiyyətinin yüksəlməsi, elmi və texnoloji biliklərin tətbiqi, həmçinin ölkənin iqtisadi və sosial inkişafına təsir edəcək müsbət nəticələrin əldə olunması mümkündür. Nəticə etibarilə, bu məsələlərin həlli üçün qiymətləndirmə, yeni standartlar, elmi cəhətdən əsaslandırılmış proqramlar və sosial infrastruktur modeli təklif olunmalıdır *(Məmmədova, 2018)*.

Qarabağ bölgəsinin iqtisadi inkişafının planlaşdırılması və investisiya qoyuluşları ilkin mərhələdə böyük miqyaslı layihələr və çətinliklərlə qarşılaşa bilər, amma sərmayədarlar üçün bu çox sərfəli bir fürsət təqdim edir, çünki hazırda bölgə bərpa üçün heç bir yıxılma xərci olmadan yenidən qurulacaq. Azərbaycanın müstəqil olmağa başladığı dövrdə zavod və fabriklərin maliyyələşdirilməsi barədə qeyri-müəyyənlik olsa da, xarici investisiyalar ölkəyə daxil olmağa başlamışdı. Özəlləşdirmə prosesində bir çox xarici investorlar yer almışdır. Hazırkı vəziyyətdə dövlətin inkişaf strategiyasının əsas hədəfi infrastrukturun qurulması, iri tikinti layihələrinin həyata keçirilməsi və bu sahədə işçilərin marağını artırmaq üçün vergi güzəştlərinin tətbiqidir.

Sosial infrastrukturun əsas məqsədi əhalinin gündəlik ehtiyaclarını qarşılayan qeyri-istehsal xidmətlərinin təmin olunmasıdır *(ARDSK, 2024)*:

- Sağlamlığın qorunması və yaxşılaşdırılması;
- Əhalinin təkrar istehsalı üçün lazımi şəraitin yaradılması;

- Demoqrafik proseslərin irəliləməsi üçün uyğun şəraitin təmin edilməsi;
- Bölgənin hər yerində sosial xidmətlərin əlçatan olmasını təmin etmək, bununla da ərazi arasındakı sosial-iqtisadi fərqlilikləri azaldmaq;
- Hər bir fərdin potensialının tam reallaşması üçün baza şəraitinin qurulması, istehlak dəyərlərinin strukturlaşdırılması yolu ilə.

İnvestisiya qoyuluşları hansı sahələri əhatə etməli olduğunu nəzərə alarkən, əlbəttə ki, regionun relyefi, təbii ehtiyatları, əhalinin təhsil səviyyəsi və zehni inkişafı kimi faktorlar önəmlidir.

Tamamilə dağıdılmış ərazilərdə infrastrukturun tikintisinə yanaşma innovativ olmalıdır, çünki bu əraziləri əvvəlki vəziyyətinə qaytarmaq məqsədə uyğun deyil. Bəzi rayonlarda meşə yanğınları və talanlar nəticəsində onilliklər ərzində ekosistem ciddi şəkildə zərər görüb. Bu səbəbdən insan sağlamlığını, mövcud ekosistemi bərpa etməyi və gələcək nəsillərə ötürülməsini təmin etmək üçün ekoloji bərpa planı hazırlanmalıdır.

***Postkonflikt ərazilərdə prioritet istiqamətlər***

Münaqişənin səbəb olduğu ziyanın bərpası postkonflikt dövründə bir çox sahədə prioritetlərin müəyyənləşdirilməsini tələb edir. Bu rayonların münaqişədən sonra aşkarlanması və bərpası prosesi mürəkkəb və çoxaddımlı bir yanaşma tələb edir. Beynəlxalq təcrübələrə əsasən, zərərin müəyyən edilməsindən sonra minimum həyat səviyyəsinin təmin edilməsi prioritet olaraq qarşıya qoyulmalıdır. Minimum həyat səviyyəsinin təmin olunması üçün aşağıdakı əsas amillər vacibdir *(Azərbaycan, 2021)*:

- Azad edilmiş ərazilərin minalardan təmizlənməsi;
- Enerji mənbələrinin təmin edilməsi;
- Əsas yol infrastrukturunun bərpası;
- İçməli su, sanitariya və suvarma sistemlərinin bərpası;
- Mənzillərin bərpası və əhalinin yaşayış şəraitinin təmin edilməsi;
- Humanitar məqsədlər üçün hava limanlarının yenidən qurulması.

2019-2023-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü proqramın yekun hesabatı, o cümlədən iqtisadi islahatların həyata keçirilməsində əhəmiyyətli rol oynayan dövlət proqramlarının və inkişaf strategiyalarının təhlili göstərir ki, bu dövr ərzində ölkədə 61 yaşayış məntəqəsi və 37 yeni yaşayış kompleksi qazlaşdırılmışdır. Nəticədə 15,338 abonent təbii qazla təmin edilib və ölkədə qazlaşdırma səviyyəsi 96%-ə çatıb.

İlkin mərhələdə bu sahələrə edilən investisiyalar gələcəkdə sosial və iqtisadi inkişafı təmin edəcək. Minalardan təmizləmə isə bu rayonlara

köçürülməsi planlaşdırılan əhalinin təhlükəsizliyinin təmin edilməsi baxımından ən mühüm addımdır.

Bu prosesdən sonra ən əhəmiyyətli yol xətlərinin bərpası, yaşayış sahələri ilə digər vacib obyektlər arasında asan əlaqə yaradacaqdır. İçməli su, sanitariya və suvarma sistemlərinin yenidən qurulması isə əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına və ailələrin sonrakı iqtisadi inkişafına töhfə verəcəkdir. Beləliklə, minimum həyat səviyyəsinin təmin edilməsi, sonraki sosial-iqtisadi inkişafın ilkin mərhələsi kimi qiymətləndirilə bilər.Bundan əlavə, əhalinin öz doğma yurdlarına tam şəkildə köçürülməsindən sonra bir sıra mühüm layihələrin həyata keçirilməsi məqsədəuyğun sayılır *(Müzəffərli & İsmayılov, 2010)*:

- Şuşa Dövlət Konservatoriyasının filialı əsasında musiqi klasterinin yaradılması, bu klasterə musiqi məktəbləri, musiqi alətlərinin hazırlanması üzrə sahibkarlıq obyektləri, orkestr və ansamblların təşkili, habelə muğam evinin tikilməsi planlaşdırılır;
- Nəqliyyat kommunikasiyalarının bütün növlərinin inkişaf etdiyi iri şəhərlərdən birində Qarabağ Dövlət Universitetinin, eləcə də dövlət və özəl universitetlərin filiallarının açılması, yerli iqtisadi fəaliyyət sahələrinə uyğun mütəxəssislərin hazırlanması üçün kolleclərin yaradılması;
- Əlverişli coğrafi mövqedə yerləşən şəhərlərdə "ASAN" və "DOST" mərkəzlərinin qurulması.

Hazırda dövlətin əsas prioriteti Qarabağda normal həyatın bərpa olunması və erməni vandalizminə məruz qalmış ərazilərin qısa müddətdə yaşamaq üçün əlverişli şəraitə gətirilməsidir. Qarabağın ayrılmaz hissəsi olan rayonların iqtisadi strukturu çox istiqamətli olmaqla yanaşı, zəngin təbii və resurs potensialına sahibdir. Bu bölgədə sürətli və məqsədyönlü şəkildə infrastruktur obyektlərinin geniş şəbəkəsinin qurulması zəruri məsələyə çevrilmişdir. Mövcud imkanları nəzərə alaraq, burada perspektivli iqtisadi sahələrin təşəkkül tapması və davamlı inkişafının təmin olunması tamamilə real görünür *(Əliyev, 2021)*.

Təsadüfi deyil ki, Qarabağda həyata keçirilən tikinti və bərpa işləri məhz infrastrukturun yaradılması ilə başlayıb. Çünki bu ərazilərdə ilkin infrastruktur təmin edilmədən hər hansı tikinti və abadlıq işlərinin aparılması mümkün deyil. Bu baxımdan Prezident dəfələrlə qeyd edib ki, bölgənin dirçəlişi üçün ilk növbədə güclü və müasir infrastruktur qurulmalıdır. Hazırda reallaşdırılan layihələr müxtəlif sahələri əhatə edərək həm iqtisadi, həm də sosial inkişaf baxımından əhəmiyyət daşıyır.

İşğaldan azad olunan ərazilərin bərpası və inkişafı ilə bağlı dövlətin iqtisadi strategiyası çərçivəsində 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf

üzrə milli prioritetlər müəyyən olunaraq təsdiqlənmişdir. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri” adlı sənəd qarşıdakı onillikdə ölkənin inkişafının istiqamətlərini müəyyən edən yol xəritəsi kimi çıxış edir. Bu sənəddə nəzərdə tutulan beş əsas prioritetdən biri də məhz azad edilmiş ərazilərdə əhalinin sürətli və dayanıqlı şəkildə qayıdışının təmin olunması, məskunlaşmanın sabitliyinin qorunması və bu ərazilərin ölkənin ümumi iqtisadi həyatına yenidən inteqrasiyasıdır.

“Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlər” sənədində Qarabağın dirçəlişi məsələsinə xüsusi diqqət yetirilmişdir *(Azərbaycan, 2021)*. Burada qeyd olunur ki, əvvəlki dövrlərdə olduğu kimi, bu gün də işğaldan azad edilən torpaqlara qayıdan vətəndaşların təhlükəsiz, rahat və ləyaqətli yaşayış şəraiti təmin olunmalı, həmin ərazilər ölkənin ən inkişaf etmiş və abad bölgələrindən birinə çevrilməlidir. Bu məqsədlə hərtərəfli bərpa və quruculuq işləri həyata keçirilməlidir. Bu proses dövlətin təşviqedici tədbirləri və dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində reallaşdırılmalıdır. Yalnız bu şəraitdə Qarabağın ümumi ölkə inkişafına inteqrasiyası və böyük gələcəyin tərkib hissəsinə çevrilməsi mümkündür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il fevralın 26-da yerli və xarici jurnalistlərlə keçirilən mətbuat konfransında bu istiqamətdə qarşıda duran əsas vəzifələri qeyd edərək bildirmişdir: “Məskunlaşma üçün ilk növbədə ərazilərin minalardan təmizlənməsi tamamlanmalıdır. Digər tərəfdən, işğal illərində bu torpaqlarda bütün infrastruktur məhv edilib, şəhərlər, kəndlər yoxdur, insanlar qayıtmaq üçün fiziki olaraq yaşayış məntəqəsi tapa bilmir. Buna görə də artıq “ağıllı kənd” layihəsinin icrasına başlanılıb. Bu layihə köçkünlərimizin geri dönüşü zamanı onlara ən yaxşı yaşayış imkanlarını yaratmaq məqsədi daşıyır”.

Bu baxımdan Qarabağın yenidən qurulması müasir texnologiyaların və dayanıqlı inkişaf modellərinin tətbiqi ilə reallaşmalı, ərazilərin sosial-iqtisadi cəhətdən canlandırılması ölkənin ümumi tərəqqisinə mühüm töhfə verməlidir *(Rəşid, 2020)*.

İnfrastrukturun inkişafı, sadəcə iqtisadi göstəricilərlə məhdudlaşmır, həm də insanların gündəlik həyat keyfiyyətini yüksəldən əsas amillərdəndir. Gündəlik fəaliyyətlərin fasiləsiz və rahat şəkildə davam etməsi üçün güclü infrastruktur həyati əhəmiyyət daşıyır. Eyni zamanda güclü infrastruktur sistemi dövlətin təhlükəsizlik və müdafiə qabiliyyətinin əsas dayaqlarından biri hesab olunur.

İnfrastruktura yönəldilən sərmayələr, təkcə iqtisadi inkişafı tənzimləmək funksiyası daşımır, həm də gələcəkdə formalaşacaq iqtisadi sistemin konturlarını müəyyənləşdirir. Bu məsələlər aşağıdakı cədvəldə

göstərilmişdir.

**Cədvəl 2.** ***Qarabağda sosial infrastrukturun bərpası istiqamətlərinə tələb olunan vəsaitlər*** *(Müzəffərli & İsmayılov, 2010)*

| **Sosial infrastrukturun inşası** | **Milyon azn** | **İnfilyasiya ilə (milyon azn)** |
|---|---|---|
| Xəstəxana və təcili tibbi yardım stansiyalarının inşası üçün | 161.2 | 248.1 |
| Təhsil obyektlərinin inşası üçün | 310 | 450 |
| Mədəniyyət və idman təsislərinin inşası üçün | Milyon azn | İnfilyasiya ilə (milyon azn) |
| İcma mərkəzlərinin inşası üçün | 18 | 31.4 |
| Klubların inşası üçün | 96 | 142.8 |
| Kitabxanaların inşası üçün | 4.5 | 7.03 |
| İdman komplekslərinin inşası üçün | 12 | 22.8 |

Cədvəldə mövcud sosial-iqtisadi transformasiya mərhələsi göstərir ki, ölkə və onun regionlarının, xüsusilə də işğaldan azad olunmuş ərazilərin rəqabət qabiliyyəti ilk növbədə insan kapitalının miqyası və keyfiyyəti ilə müəyyən olunur.

## NƏTİCƏ

Regionlarda sosial infrastrukturun inkişaf istiqamətləri və hədəfləri bir qayda olaraq həmin ərazilərin strateji sosial-iqtisadi inkişaf prioritetləri və dövlət siyasətinin əsas xəttindən irəli gəlir. Bu baxımdan regionun sosial infrastrukturunun inkişafı üçün yalnız sosial deyil, eyni zamanda iqtisadi məzmun daşıyan strateji məqsədlərin müəyyənləşdirilməsi vacibdir. Bu məqsədlərə aşağıdakılar daxildir:

- Əhalinin ümumi həyat səviyyəsinin yüksəldilməsi;
- Öz doğma torpaqlarına geri dönəcək əhaliyə sosial xidmətləri davamlı şəkildə təmin olunması;
- Sosial xidmət müəssisələrinin və təşkilatlarının fəaliyyət effektivliyinin artırılması;
- Regionda sosial sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi.

Qarabağ regionunun postkonflikt bərpası və davamlı inkişafı kontekstində sosial sahənin və sosial infrastrukturun məqsədyönlü inkişafı əsas strateji vəzifə kimi müəyyən olunmalıdır. Bu yanaşma ərazidə dayanıqlı məskunlaşmanın təmin edilməsinə, insan kapitalının inkişafına və sosial rifahın yüksəldilməsinə xidmət edir.

Sosial infrastrukturun inkişafı aşağıdakı nəticələrin əldə olunmasına şərait yaradır:

- ✓ Əhalinin yaşamasi üçün əlverişli fiziki və sosial mühitin yaradılması;
- ✓ Maddi və mənəvi ehtiyaclarin ödənilməsi ilə insanlarin həyat keyfiyyətinin yüksəldilməsi;
- ✓ Regionun əhali və biznes subyektləri üçün cəlbedici məkana çevrilməsi;
- ✓ Sosial gərginliyin azaldilmasi və ictimai sabitliyin gücləndirilməsi;
- ✓ Regionun əmək potensialinin və insan resurslarinin səmərəli şəkildə inkişaf etdirilməsi.

Beləliklə, sosial infrastrukturun təkcə sosial təminat funksiyası deyil, həm də regional iqtisadi inkişafın, məskunlaşmanın, təhlükəsizliyin və əhalinin rifahının təmin olunmasında çoxşaxəli və strateji rolu vardır. Bu səbəbdən Qarabağ regionunun bərpası zamanı sosial infrastruktur layihələrinin prioritet şəkildə planlaşdırılması və icrası zəruridir.

## ƏDƏBİYYAT

*Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi / Azərbaycanın regionları. (2024).* İstifadə edilmişdir: 9 mart, 2024 (https://www.stat.gov.az/source/regions/).

*Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021).* İstifadə edilmişdir: 7 mart, 2024 (https://president.az/az/articles/view/50474).

*Əliyev, T.N. (2021).* İşğaldan azad edilmiş Azərbaycan ərazilərində qabaqcıl idarəetmə metodları əsasında sahibkarlığın inkişaf istiqamətləri. İqtisadi artım və sosial təminat. Bakı: Azərnəşr, Buraxılış 1, s. 10-19.

*Global innovation index 2020: Who Will Finance Innovation? (2020).* İstifadə edilmişdir: 9 mart, 2024 (https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2020.pdf).

*“Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2021).* İstifadə edilmişdir: 6 mart, 2024 (https://e-qanun.az/framework/46628).

*Məmmədova, N. (2018).* Regionların sosial-iqtisadi inkişafının dövlət proqramları ölkənin sürətli tərəqqisinə mühüm stimul yaradır. Xalq qəzeti, 20 avqust, s. 6-8.

*“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2016).* İstifadə edilmişdir: 9 mart, 2024 (https://e-qanun.az/framework/34254).

*Mirzəzadə, R.İ. (2021).* Qarabağın torpağı informasiya məkanı və muzey işi kontekstində. Torpaqşünaslıq və aqrokimya. Bakı: Elm, № 2, s. 81-86.

*Müzəffərli, N., & İsmayılov, E. (2010).* Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar. Bakı: Qafqaz, 270 s.

*Rəşid, L. (2020).* İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf prespektivləri. Xalq qəzeti, 9 dekabr, s. 4-6.

*Чинаева, Т.И. (2017).* Структура затрат на технологические инновации по видам инновационной деятельности. Друкеровский вестник, №2(16), с. 55-63.

**Konul Ilgar gizi Mammadova**
*Baku City Statistics Department, Finance and Economic Sector, Leading consultant*
***E-mail:*** gonul@mail.ru
*https://orcid.org/0009-0007-2311-3162*

# RECONSTRUCTION OF SOCIAL INFRASTRUCTURE AND REHABILITATION OF REGIONS IN POST-CONFLICT TERRITORIES

***Abstract:*** *Restoring social infrastructure is important for the socio-economic recovery of regions after a conflict. In this regard, the article analyzes the spheres of education, health care, transport, utilities and social security, evaluates the work on state programs and investments. The role of infrastructure in improving the well-being of the population and attracting investment is emphasized, as well as the need for a systemic and comprehensive approach for sustainable development in post-conflict conditions.*

***Keywords:*** *Post-conflict areas, social infrastructure, regional development, sustainable development, public policy, social welfare.*

**Конуль Ильгар кызы Мамедова**
*Управление статистики города Баку,*
*Финансово-экономический сектор, Ведущий консультант*
***Электронная почта:*** gonul@mail.ru
*https://orcid.org/0009-0007-2311-3162*

## ВОССТАНОВЛЕНИЕ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ И РЕАБИЛИТАЦИЯ РЕГИОНОВ В ПОСТКОНФЛИКТНЫХ ТЕРРИТОРИЯХ

***Резюме:*** *Восстановление социальной инфраструктуры важно для социально-экономического возрождения регионов после конфликта. В связи с этим в статье анализируются сферы образования, здравоохранения, транспорта, коммунального хозяйства и соцобеспечения, оцениваются работы по государственным программам и инвестициям. Подчеркивается роль инфраструктуры в улучшении благосостояния населения и привлечении инвестиций, а также необходимость системного и комплексного подхода для устойчивого развития в постконфликтных условиях.*

***Ключевые слова:*** *Постконфликтные территории, социальная инфраструктура, региональное развитие, устойчивое развитие, государственная политика, социальное обеспечение.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 12.03.2024; çapa qəbul edilib – 05.04.2024.



KİTABXANA.AZ, 2024, aprel, №1(40), 51-61



**UOT/UDC/УДК** ***338.242.4:664***
DOI 10.5281/zenodo.16965169

**Elmaz İlyas qızı Uzun**
*Azərbaycan Respublikası ETN*
*İqtisadiyyat İnstitutunun elmi işçisi*
***E-mail:*** almazfatush@gmail.com
*https://orcid.org/0009-0005-6045-5538*

# QİDA İSTEHSALI SAHƏSİNDƏ KLASTERLƏRİN YARADILMASI İMKANLARI

***Xülasə:*** *Məqalədə Azərbaycanın yeyinti sənayesində klasterlərin yaradılması, onların inkişaf istiqamətləri və mövcud qanunvericilik bazası araşdırılır; respublika üzrə qida istehsalı sahəsində klasterlərin formalaşdırılması zəruriliyi əsaslandırılır, bu sahələrdə klaster yaratmaq imkanları rəsmi statistik göstəricilərə əsaslanaraq təhlil olunur və mövcud qanunvericilik bazası geniş şəkildə şərh edilir.*

***Açar sözlər:*** *Qida məhsulları istehsalı, idxal, ixrac, özünütəminetmə, klaster, tələbat.*

## GİRİŞ

Qida sənayesində klasterlərin yaradılması yerli istehsalın inkişafı, rəqabət qabiliyyətinin artırılması və innovasiyaların tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır. Müəssisələrin birgə əməkdaşlığı və resursların səmərəli istifadəsi nəticəsində həm məhsuldarlıq artır, həm də ixrac potensialı güclənir. Azərbaycanda kənd təsərrüfatı və qida sənayesi üzrə mövcud infrastruktur regionlarda bu cür klaster modellərinin tətbiqi üçün əlverişli şərait yaradır.

Azərbaycanın iqtisadi inkişafı üçün idxalı əvəz edən istehsalın genişləndirilməsi mühüm əhəmiyyət daşıyır. Bu həm də milli istehsalın təşviqi və dayanıqlı iqtisadi artım üçün baza rolunu oynayır.

Məlumdur ki, idxalın əvəzlənməsi - xarici malların yerli istehsal məhsulları ilə əvəz olunmasıdır. İdxalı əvəz edən istehsalın formalaşdırılması və inkişafı Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri hesab olunur. Xüsusilə qida məhsulları idxalının əvəzlənməsi ölkənin xarici dövlətlərdən asılılığının azalması və daxili resurslardan daha səmərəli istifadə edilməsini təmin edir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2017–2022-ci illər ərzində Azərbaycanda 226 yeni yeyinti məhsulları istehsal edən müəssisə fəaliyyətə başlamış, bu rəqəm 2022-ci ildə ümumilikdə 587 müəssisəyə çatmışdır. Yeni müəssisələrin sahə üzrə ümumi müəssisələrdəki payı 39% təşkil etmişdir. Qeyd olunan artım əsasən qeyri-dövlət sektorunun hesabına baş vermişdir. Belə ki, mülkiyyət formasına görə qida məhsulları istehsalında qeyri-dövlət sektorunun payı 98,8%, dövlət sektorunun payı isə cəmi 1,12% olmuşdur *(ARDSK, 2024).*

**Cədvəl 1.** ***Əsas növ qida məhsullarının istehsalı, idxalı və ixracının dinamikası (min ton)*** *(Main, 2024)*

| Məhsul növləri | 2017 | | | 2020 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | istehsal | idxal | ixrac | istehsal | idxal | ixrac | istehsal | idxal | ixrac |
| Ət, cəmi | 316,8 | 58,0 | 0,665 | 346,0 | 63,6 | 0,109 | 368,2 | 61,5 | 1,6 |
| **Onlardan:** iribuynuz-lu heyvan əti | 132,9 | 9,3 | - | 143,1 | 9,8 | 0,061 | 148,6 | 4,8 | 0,08 |
| quş əti və onun əlavə məhsulları | 104,3 | 25,8 | - | 115,4 | 29,8 | 0,031 | 130,1 | 34,8 | 1,4 |
| kolbasa məmu-latları | 13,5 | 2,3 | - | 25,8 | 4,7 | - | 29,7 | 5,2 | - |
| süd və süd məhsulları | 2024,1 | 344,0 | 16,0 | 2192,5 | 461,3 | 27 | 2264,7 | 489,9 | 37,4 |
| kərə yağı | 25,3 | 13,8 | - | 25,8 | 16,8 | - | 25.9 | 18 ,6 | 1,4 |
| quş yumur-taları, mln. ədəd | 1714,0 | 0,133 | 9,2 | 1906,2 | 0,162 | - | 2 018,1 | 1,3 | 11,8 |

Qeyd etmək lazımdır ki, respublikaya idxal olunan yeyinti məhsullarının əhəmiyyətli hissəsini dənli bitkilər təşkil edir. 2021-ci ildə Azərbaycana 388,6 milyon ABŞ dolları, 2022-ci ildə isə 516 milyon ABŞ dolları dəyərində dənli bitkilər idxal olunmuşdur *(Micro, 2024)*. Bu 2017-ci illə müqayisədə 92,5% artım deməkdir. Belə yüksək idxal həcmi daxili tələbatın xarici bazarlardan asılı şəkildə ödənildiyini göstərir. Bu baxımdan, respublikada strateji qida məhsullarından biri olan dənli bitkilərin əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması zəruri hesab olunur.

**MÜZAKİRƏ**

Təhlillər göstərir ki, 2017–2022-ci illər ərzində bəzi məhsullar üzrə idxalda azalma, digərləri üzrə isə əhəmiyyətli artım müşahidə edilmişdir. Belə ki, iribuynuzlu heyvan əti, yumurta, bitki yağları və şəkərin idxalında azalma qeydə alınmışdır. Eyni zamanda süd və süd məhsulları, kərə yağı, buğda unu, meyvə-tərəvəz və onlardan hazırlanan konserv məhsullarının idxalı artmışdır. Qiymət dinamikasına gəldikdə 2017-ci ildə 1 kiloqram iribuynuzlu ətin idxal qiyməti 2,86 ABŞ dolları olduğu halda, 2022-ci ildə bu rəqəm 4,51 dollara yüksəlmişdir. Kərə yağı üçün isə müvafiq olaraq 4,84 dollardan 5,83 dollara qədər artım baş vermişdir. Yerli bazarda isə mal ətinin 1 kiloqramı 8–9 ABŞ dolları, kərə yağı isə 10–12 dollar arasında satılır ki, bu da idxal məhsullarının satış zəncirindəki əlavə xərcləri və marjanı göstərir *(Statistical, 2024)*.

Əlavə olaraq qeyd edilməlidir ki, qida məhsullarının faktiki istehlak dəyəri də artım dinamikası göstərmişdir. Əgər 2017-ci ildə bu göstərici 4,3 milyard manat təşkil etmişdirsə, 2022-ci ildə 2,8 milyard manatlıq (təxminən 65%) artımla 7,1 milyard manata çatmışdır (bax: Cədvəl 2). Bu göstəricilər ölkə daxilində qida məhsullarına olan tələbatın davamlı şəkildə artdığını və daxili istehsalın bu tələbi tam qarşılaya bilmədiyini nümayiş etdirir *(Main, 2024)*.

2017-ci ildə faktiki istehlakda idxalın payı 34,9% təşkil etmiş, 2022-ci ildə isə bu göstərici cüzi artaraq 35,2%-ə çatmışdır. Eyni dövrdə qida məhsulları üzrə özünütəminetmə səviyyəsi 69,2%-dən 0,6% azalaraq 2022-ci ildə 68,6%-ə düşmüşdür. Bu rəqəmlər göstərir ki, hazırda Azərbaycanın qida məhsullarında özünütəminetmə səviyyəsi yetərincə yüksək deyil və daxili tələbatın təxminən üçdə biri idxal hesabına ödənilir. Bu isə ölkənin qida təhlükəsizliyi baxımından müəyyən risklər yarada bilər.

**Cədvəl 2. Qida istehsalı məhsullarının tələbatı, özünütəminetmə səviyyəsi və idxaldan asılılıq (milyon manat)** *(Main, 2024)*

| Sıra sayı | Göstəricilər | 2017 | 2021 | 2022 |
|---|---|---|---|---|
| 1 | İstehsalın həcmi, mln. manat | 2 999,8 | 4 495,6 | 4 890,9 |
| 2 | İdxal, mln. manat | 1 512,8 mln. man. (889,9 mln. dollar) | 2038,1 mln. man. (1 198,9 mln. dollar) | 2 508,5 mln. man. (1 475,6 mln. dollar) |
| 3 | İxrac, mln. manat | 179,7 mln. man. (105,7 mln. dollar) | 216,1 mln. man. (127,1 mln. dollar) | 266,7 mln. man. (156,9 mln. dollar) |
| 4 | İstehlak, mln. manat | 4332,9 | 6 317,6 | 7 132,7 |
| 5 | Ozünütəmin-etmə səviyyəsi, % | 69,2 | 71,2 | 68,6 |
| 6 | İdxaldan asılılıq, % | 34,9 | 32,3 | 35,2 |

Araşdırmalar göstərir ki, 2021-ci ildə Azərbaycanın minimum istehlak səbətinə əsasən, idxal və ixrac nəzərə alınmadan hesablanan özünütəminetmə səviyyəsi kərə yağı üzrə 40%, süd və süd məhsulları üzrə 95%, balıq və balıq məhsulları üzrə isə 77% olmuşdur. Həmin ildə istehlakda idxalın ən yüksək payı aşağıdakı məhsullar üzrə qeydə alınmışdır: makaron məmulatları – 56%, kərə yağı – 35%, bitki yağı və marqarin – 27%, çay – 19%, süd və süd məhsulları – 16%, meyvə və tərəvəz konservləri – 16%, şirələr – 10% *(Main, 2024)*.

2021-ci ildə kərə yağına olan tələbatın 49%-i idxal hesabına ödənilmişdir. Bu fakt göstərir ki, əhalinin tələbatını daxili istehsal hesabına qarşılamaq üçün kərə yağı istehsalı təxminən 40–50% artırılmalıdır. Eyni zamanda, kərə yağı istehsalı üçün əsas xammal olan südün istehsalının artırılması da zəruri sayılır. Belə ki, 2021-ci ildə süd və süd məhsullarının istehsalında idxalın payı 19% təşkil etmişdir. Bu səbəbdən ölkədə süd istehsalının 40–50% artırılması, kərə yağına olan tələbatın yerli istehsalla ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Respublikada qida məhsullarının idxalını əvəz edə biləcək əsas imkanlardan biri də müvafiq istehsal müəssisələrinin fəaliyyətidir. Hazırda kərə yağı istehsalı ilə məşğul olan əsas müəssisələr sırasında Bakı şəhərində yerləşən “Xırman” MMC, “Milk-Pro” MMC, Bərdə şəhərində “Bərdə Yağ Pendir Az Qida” MMC, Lənkəran şəhərində “Nur Süd” MMC, Samuxda “Ruzi” MMC, Qəbələdə isə “Gilan Süd İstehsalı Müəssisəsi” MMC kimi müəssisələr yer alır.

Respublikada bir çox yeyinti məhsulları emal olunmadan xammal kimi ixrac edilir. 2021-ci ildə ixrac olunan emal olunmamış təzə meyvə və tərəvəzlər ümumi kənd təsərrüfatı məhsulları ixracının 82,2%-ni təşkil etmişdir. 2020–2022-ci illərdə isə ümumilikdə 1 855 min ton bu tip məhsul ixrac olunmuşdur. Halbuki təzə meyvə və tərəvəzlərin bir hissəsi yerli müəssisələrdə emal edilərək konservləşdirilə bilər və bu həm daxili tələbatı ödəmək, həm də ixracı artırmaq baxımından əhəmiyyətlidir. Məsələn, 2021-ci ildə 628 min ton (630,4 mln dollar), 2022-ci ildə isə 626 min ton (667,6 mln dollar) meyvə və tərəvəz ixrac olunmuşdur. Lakin həmin il meyvə və tərəvəz konservlərinin ixracı cəmi 9,1 min ton olduğu halda, idxalı 28,5 min ton təşkil etmişdir *(Micro, 2024)*. Bu da onu göstərir ki, yerli emal potensialı hələ tam istifadə olunmur.

Digər tərəfdən, əsas idxal edilən qida məhsulları ət və ət məhsulları, süd və süd məhsulları, kərə yağı, quş əti, kolbasa, marqarin, buğda unu və çaydır. İdxalın strukturundan göründüyü kimi, bunların əksəriyyəti heyvandarlıq məhsullarıdır. Bu sahədə yerli istehsalın artırılması üçün aşağıdakı tədbirlər vacibdir: otlaq sahələrinin genişləndirilməsi, təsərrüfatların su təminatının yaxşılaşdırılması, məhsuldar ətlik və südlük heyvan cinslərinin gətirilməsi və güzəştli şərtlərlə paylanması, regionlarda emal və tədarük məntəqələrinin yaradılması, dövlət dəstəyi və güzəştlərin artırılması, gömrük nəzarətinin gücləndirilməsi, inhisarçılığın qarşısının alınması, iqtisadi stimullaşdırma vasitələrinin daha düzgün hədəflənməsi, lizinq və sığorta mexanizmlərinin genişləndirilməsi.

Ət və ət məhsulları, kərə yağı, süd və süd məhsullarının istehsalını artırmaq üçün bir sıra vacib tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Bunlara rayonlarda ümumi otlaq sahələrinin formalaşdırılması, təsərrüfatların su təminatının yaxşılaşdırılması, ətlik və südlük istiqamətli məhsuldar heyvan cinslərinin respublikaya gətirilərək güzəştli şərtlərlə təsərrüfatlara verilməsi, regionlarda emal və tədarük məntəqələrinin yaradılması və inkişafı daxildir. Eyni zamanda, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, gömrük nəzarətinin təkmilləşdirilməsi, inhisarçılığın qarşısının alınması, lizinq və sığorta mexanizmlərinin genişləndirilməsi,

iqtisadi stimullaşdırma alətlərindən daha effektiv və düzgün hədəflənmiş şəkildə istifadə olunması vacibdir.

Qeyd etmək lazımdır ki, bu tədbirlər həm imkanların yaradılması, həm də mövcud şəraitin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Çünki real imkanların gerçəkləşməsi birbaşa həmin şəraitin formalaşdırılmasından asılıdır. Məsələn, Salyan və Sabirabad rayonlarında şoran torpaqların təmizlənməsi üzrə həyata keçirilən layihələrin kənd təsərrüfatının , xüsusilə heyvandarlıq və bitkiçilik sahələrinin inkişafına müsbət təsir göstərəcəyi gözlənilir. Bu da mövcud torpaq fondunun daha səmərəli istifadəsinə şərait yaradacaq.

***Sahə və ərazi klasterlərinin yaradılması***

Sənaye məhsulları istehsalında sahə və ərazi klasterlərinin yaradılması prioritet məsələlərdəndir. Klasterlərin əsas məqsədi qeyri-neft sektorunda rəqabətqabiliyyətli məhsul və xidmətlərin təşviqi, sahibkarlıq subyektləri arasında istehsal-texnoloji əlaqələrin gücləndirilməsi və regionlarda dayanıqlı iqtisadi inkişafın təmin edilməsidir.

Hazırda çətinliklərdən biri budur ki, fəaliyyət göstərən biznes subyektlərinin əksəriyyəti kiçik və orta müəssisələrdir. Buna görə də klasterlərin formalaşması üçün əsas rol aparıcı müəssisələrin üzərinə düşür.

Qida məhsulları istehsalı sahəsində respublikanın bütün regionlarında fəaliyyət göstərən müəssisələr mövcuddur. Bu sahədə iri şirkətlər – *Azərsun Holdinq*, *Veysəloğlu Şirkətlər Qrupu* və *Paşa Holdinq*ə daxil olan müəssisələr xammaldan hazır məhsula qədər olan bütün istehsal zəncirini əhatə edirlər. Bu strukturlar klasterlərin əsas bazası kimi çıxış edə bilər. Məsələn, Quba-Xaçmaz iqtisadi rayonunda meyvə-tərəvəz məhsullarının emalı üzrə klasterin yaradılması məqsədəuyğundur. Bu bölgədə fəaliyyət göstərən müəssisələrin əksəriyyəti Azərsun Holdinqin nəzarətindədir və müvafiq infrastruktur mövcuddur.

***Azərsun Holdinq*** qida sənayesi üzrə ölkənin aparıcı müəssisələrindən biri olaraq sənaye klasterinin formalaşdırılması üçün geniş potensiala malikdir. Holdinqin tərkibinə aşağıdakı istehsal müəssisələri daxildir:

- *“Mamam Chocolate and Bakery”* MMC;
- *Qafqaz Konserv Zavodu;*
- *Şamaxı Dairy Farm;*
- *Bakı Qida və Yağ Fabriki;*
- *Sun Tea Çay Fabriki;*
- *Azərbaycan Şəkər İstehsalat Birliyi;*
- *Azərbaycan Duz İstehsalat Birliyi.*

Bu müəssisələr şokolad, süd və süd məhsulları, çay, duz və digər qida məhsullarının istehsalı ilə məşğuldur. Məhsullar həm daxili bazarda satışa çıxarılır, həm də ixrac olunur. Holdinqə daxil olan müəssisələrin birgə və çevik fəaliyyəti, vahid idarəetmə sisteminin mövcudluğu sənaye klasterinin effektiv əsasını təşkil edə bilər.

Azərsun bazasında formalaşdırılacaq sənaye klasterinə digər müstəqil müəssisələrin cəlb edilməsi rəqabət mühitini gücləndirəcək, istehsal imkanlarını artıracaq və regionlarda iqtisadi potensialın reallaşmasına şərait yaradacaq. Bununla məhsul keyfiyyəti yüksələcək, qiymətlər optimallaşacaq, məhsul çeşidləri genişlənəcək.

***Veysəloğlu Şirkətlər Qrupu*** da sənaye klasteri modeli üçün potensial daşıyır. Holdinqin tərkibinə aşağıdakı müəssisələr daxildir:

- *“Ulduz” Şokolad Fabriki;*
- *“Xonça” Fabriki;*
- *“Sirab” mineral sular zavodu;*
- *“Badamlı” mineral sular zavodu;*
- *“VİP-PROD” MMC.*

Bu şirkətlər əsasən şirniyyat və içki məhsullarının istehsalı ilə məşğuldur. İstehsal obyektləri əsasən Bakı şəhərində və Naxçıvan Muxtar Respublikasında yerləşir. Veysəloğlu Şirkətlər Qrupu daxilində vahid rəhbərlik olsa da, əlavə müstəqil istehsalçıların cəlb edilməsi bu strukturu tipik sənaye klasterinə çevirmək üçün əlverişli zəmin yarada bilər.

“Gilan Zeytun” MMC, Gilan Çay İstehsalı Fabriki, Qəbələ Fındıq Emalı Zavodu, Qəbələ və Lənkəran Konserv Zavodları hazırda, bir çətir altında, ***Paşa Holdinqin*** nəzarətində fəaliyyət göstərir. Bu müəssisələr texnoloji baxımdan bir-biri ilə bağlı olub, birgə istehsal zənciri təşkil edir. Ətrafında cəmlənmiş digər müəssisələrlə birlikdə bu strukturun sənaye klasteri formasında inkişaf etdirilməsi məqsədəuyğundur. Əlavə emal və xidmət müəssisələrinin cəlb edilməsi ilə mövcud potensialın daha səmərəli şəkildə istifadəsi mümkündür. Eyni zamanda, Göyçay rayonunda fəaliyyət göstərən “Aznar” QSC və “Göyçay-Süd” ASC kimi müəssisələr də sənaye klasterinin formalaşdırılması baxımından əlverişli imkanlar yaradır.

“Aznar” QSC nar və digər meyvələrdən sok, cem, mürəbbə, meyvə yağı, çaxır, meyvə arağı və sos məhsulları istehsal edir və əsasən Göyçayla yanaşı, ətraf rayonlardan toplanan meyvələrdən xammal kimi istifadə edir. “Göyçay-Süd” ASC isə süd və süd məhsulları, həmçinin meyvə şirələri istehsal edir. Bu müəssisələr müxtəlif mülkiyyətçilərə məxsus olsa da, eyni coğrafi ərazidə yerləşməsi və fəaliyyət sahələrinin bir-birini tamamlaması onları vahid maraqlar əsasında bir mərkəzdə birləşdirməyə şərait yaradır. Bu

baxımdan Göyçayda meyvə şirələri, cem, konservlər və süd məhsullarının istehsalı üzrə ərazi klasterinin yaradılması məqsədəuyğun hesab olunur. Belə bir struktur həm yerli xammal, əmək və digər resurslardan daha səmərəli istifadəni təmin edər, həm də ətraf rayonların istehsal potensialını birləşdirərək regional sənaye inkişafını sürətləndirə bilər. Fikrimizcə, Aran iqtisadi rayonunda (Azərbaycan Respublikasının 2021-ci ilə qədər şərti iqtisadi rayonlarından biri, indiki Mərkəzi Aran iqtisadi rayonu) süd və süd məhsulları üzrə aqrar-sənaye klasterinin yaradılması məqsədəuyğundur. Bölgənin düzən relyefi, münbit torpaqları, su ehtiyatları və əlverişli iqlimi kənd təsərrüfatı üçün geniş imkanlar yaradır. Aran bölgəsi ölkə ərazisinin 24,7%-ni əhatə etməklə əhalinin 20,2%-nin yaşadığı bir ərazidir *(Micro, 2024)*. Burada "Milk-Pro" MMC (Göyçay), "Azərsüd" MMC (Kürdəmir), "Atena" MMC (Ağcabədi) kimi iri süd emalı müəssisələri fəaliyyət göstərir. Klasterin yaradılması bu potensialdan səmərəli istifadə etməyə, investisiya cəlbinə, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə və ixrac imkanlarının artırılmasına şərait yarada bilər.

Eyni zamanda, Quba-Xaçmaz iqtisadi rayonunda 20-dən çox meyvə-tərəvəz emalı müəssisəsinin mövcudluğu, bölgənin xammal və işçi qüvvəsi potensialı, eləcə də Bakı və Sumqayıt kimi iri istehlak bazarlarına yaxınlıq bu ərazidə də klasterləşmə üçün əlverişli şərait yaradır.

***Daxili bazarın mühafizəsinin qanunvericilik bazası və ona riayət olunması***

Daxili bazarın qorunması Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanunu, beynəlxalq müqavilələr və digər normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə 31 may 2016-cı il tarixli "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət daşıyır *(Antidempinq, 2016)*. Qanunla xüsusi rüsum və idxal kvotaları vasitəsilə yerli istehsalçıların qorunması nəzərdə tutulsa da bu tədbirlər faktiki olaraq tətbiq edilmir. Bu tədbirlərin icrası azad bazar prinsipləri ilə ziddiyyət təşkil etdiyindən, qanunun mövcud iqtisadi şəraitə uyğun təkmilləşdirilməsinə ehtiyac var.

Xüsusi rüsum və idxal kvotaları "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında tətbiq olunmaqla, yerli istehsalçılara dəyən ciddi zərərin qarşısını almaq və onların yeni iqtisadi şərtlərə uyğunlaşmasını asanlaşdırmaq məqsədi daşıyır. Bu tədbirlər yalnız müvafiq araşdırmaların nəticələri əsasında və qanunla müəyyən olunmuş həcmdə və müddətdə tətbiq edilir.

Hazırda bir sıra kənd təsərrüfatı və ərzaq məhsulları idxal rüsumları ilə tənzimlənir. Belə ki, ət və ət məhsulları, süd məhsulları, təbii bal, çay, heyvan və bitki mənşəli yağlar, dondurulmuş balıq və pendir idxalı 15% gömrük rüsumu və 18% əlavə dəyər vergisi ilə cəlb olunur. Kərə yağı və süd pastası isə 5% gömrük rüsumu və 18% ƏDV ilə idxal edilir. Diri balıqlar yalnız ƏDV ilə vergiyə cəlb olunur. Bu göstəricilər daxili bazarın qorunması baxımından əhəmiyyətli olsa da, mühafizə tədbirlərinin effektivliyi üçün hüquqi mexanizmlərin daha çevik və tətbiqolunan olması zəruridir *(Statistical, 2024)*.

***Beynəlxalq standartlara uyğun məhsul istehsalı***

Beynəlxalq standartlar dedikdə əsasən ISO, IEC və ITU kimi təşkilatların müəyyən etdiyi standartlar nəzərdə tutulur. Bu təşkilatlar çoxsaylı ölkələr tərəfindən tanınır və beynəlxalq standartların dərc edilməsinə səlahiyyətlidir. Onların hazırladığı standartlar təşkilati və texniki aspektlərdə bir-biri ilə əlaqəli olub, məhsulların keyfiyyət və uyğunluğunu təmin edir. Azərbaycanda Azərsun Holdinq, Veysəloğlu Şirkətlər Qrupu, Paşa Holdinq və "Aznar" QSC kimi şirkətlər beynəlxalq standartlara uyğun məhsullar istehsal edirlər. Bu şirkətlər həm daxili bazarı təmin edir, həm də idxalçı olduqlarından məhsullarını beynəlxalq standartlara uyğunlaşdırmaq məcburiyyətindədirlər. Lakin istehsal olunan məhsulların əksəriyyəti standartlara tam uyğun olmamaqla yanaşı, əsasən çay, meyvə şirələri, cem və mürəbbə kimi az sayda məhsul ixrac üçün beynəlxalq standartlara cavab verir. Xarici bazarlara, xüsusən keçmiş sovet ölkələrinə ixrac üçün məhsulların beynəlxalq standartlara uyğun olması vacibdir və bu idxalçı ölkələrin əsas tələbidir.

## NƏTİCƏ

- Qida təhlükəsizliyi: qida məhsullarının özünütəminetmə səviyyəsi 68,6%, idxaldan asılılıq isə 35,2%-dir. Dənli bitkilərin idxalı son beş ildə 92,5% artmışdır. Əkin sahələrinin və məhsuldarlığın artırılması vacibdir.
- Kərə yaği və süd istehsali: Kərə yağına olan tələbatı ödəmək üçün onun və əsas xammalı olan südün istehsalı 40–50% artırılmalıdır.
- Yerli emal və ixrac: 2020–2022-ci illərdə 1,9 milyon ton emal olunmamış meyvə-tərəvəz ixrac olunub. Halbuki 2021-ci ildə konserv məhsullarının idxalı ixracı 3 dəfə üstələyib. Yerli emal və konservləşdirmə genişləndirilməlidir.
- Kənd təsərrüfatinin inkişafi: heyvandarlıq və bitkiçilik sahələrinin inkişafı üçün otlaq sahələri artırılmalı, su təminatı yaxşılaşdırılmalıdır.

- Emal və tədarük zənciri: ətlik və südlük heyvandarlığın inkişafı üçün regionlarda emal və tədarük məntəqələri yaradılmalı, istehsalçı və emalçı arasında inteqrasiya təmin olunmalıdır.

Ölkəmizdə daxili bazarın qorunması Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən qanunvericilik əsasında həyata keçirilir və ən yüksək gömrük rüsumları ilə vergilər tətbiq olunur. Lakin gömrük rüsumlarının artırılması qida məhsullarının qiymətinin yüksəlməsinə və əlavə problemlərin yaranmasına səbəb ola bilər. Gömrükdən yayınma hallarına rast gəlinməsinə baxmayaraq, gömrük nəzarətinin gücləndirilməsi ilə bu neqativ hallar aradan qaldırılır. Qida məhsullarının əsas idxalçıları azsaylı iri şirkətlər olduğundan onların fəaliyyətinə ciddi gömrük nəzarətinin tətbiqi xüsusi önəm daşıyır.

## ƏDƏBİYYAT

*"Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu. (2016).* İstifadə edilmişdir: 22 yanvar, 2024 (https://e-qanun.az/framework/33306).

*Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi / Azərbaycanın regionları. (2024).* İstifadə edilmişdir: 29 yanvar, 2024 (https://www.stat.gov.az/source/regions/).

*Main economic indicators of agricultural enterprises and private ovvner farms. (2024).* Statistical yearbook. State Statistical Committee of the Republic of Azerbaijan. Baku: "AZMEGA GROUP" LLC.

*Micro, small and medium entrepreneurship in Azerbaijan. (2024).* Statistical publication. State Statistical Committee of the Republic of Azerbaijan. Baku: "AZMEGA GROUP" LLC.

*Statistical yearbook of Azerbaijan. (2024).* Baku: State Statistical Committee of the Republic of Azerbaijan.

**Elmaz Ilyas gizi Uzun**
*Scientific worker of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan*
***E-mail:*** almazfatush@gmail.com
*https://orcid.org/0009-0005-6045-5538*

## POSSIBILITIES FOR CREATING CLUSTERS IN THE FOOD PRODUCTION SECTOR

***Abstract:*** *The article explores the establishment of clusters in Azerbaijan's food industry, their development directions, and the legislative framework. It substantiates the necessity of forming clusters in the field of food production in the country, analyzes the possibilities for their creation based on official statistical data, and provides an in-depth overview of the existing legal framework.*

***Keywords:*** *Food production, import, export, self-sufficiency, cluster, demand.*

**Эльмаз Ильяс кызы Узун**
*Научный сотрудник Института экономики*
*Министерства науки и образования*
*Азербайджанской Республики*
***Электронная почта:*** almazfatush@gmail.com
*https://orcid.org/0009-0005-6045-5538*

## ВОЗМОЖНОСТИ СОЗДАНИЯ КЛАСТЕРОВ В СФЕРЕ ПРОИЗВОДСТВА ПИЩЕВЫХ ПРОДУКТОВ

***Резюме:*** *В статье исследуется создание кластеров в пищевой промышленности Азербайджана, направления их развития и законодательная база. Обосновывается необходимость формирования кластеров в сфере производства продуктов питания в республике, анализируются возможности их создания на основе официальных статистических данных и подробно рассматривается действующая нормативно-правовая база.*

***Ключевые слова:*** *Производство пищевых продуктов, импорт, экспорт, самообеспечение, кластер, спрос.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 13.02.2024; çapa qəbul edilib – 10.04.2024.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**Ədəbiyyat. Dilçilik**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Literature. Linguistics
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Литература. Лингвистика***
==========================================
**UOT/UDC/УДК** ***811.112.2'276:81'272*** DOI 10.5281/zenodo.16965531

**Jalə Tofiq qızı Abdullayeva**
*Azərbaycan Dillər Universiteti, müəllim*
***E-mail:*** jalaadu25@gmail.com
*https://orcid.org/0000-0002-3744-6562*

# ALMAN DİLİNİN MÜASİR SİYASİ CƏMİYYƏTDƏ ROLU VƏ İNKİŞAF MEYİLLƏRİ

***Xülasə:*** *Məqalədə müasir siyasi cəmiyyətdə alman dilinin rolu və onun inkişaf meylləri araşdırılır. Alman dilinin qlobal siyasi arenada və müxtəlif ölkələrin ictimai həyatında əhəmiyyəti təhlil olunur. Xüsusilə Avropa İttifaqı və digər beynəlxalq qurumlarda alman dilinin təsir gücü və bu dilin diplomatiya, iqtisadiyyat və mədəniyyət sahələrindəki təsirləri müzakirə olunur. Həmçinin məqalədə alman dilinin digər dillərlə olan qarşılıqlı əlaqələri, müasir texnologiya, media və təhsil vasitəsilə genişlənmə potensialı da araşdırılır.*

***Açar sözlər:*** *Alman dili, siyasi cəmiyyət, dilin inkişaf meyilləri, qlobal dil siyasəti, Avropa İttifaqı, diplomatiya.*

## GİRİŞ

Müasir dövrdə qloballaşmanın və siyasi inteqrasiyanın artması nəticəsində müxtəlif dillər yalnız milli identikliyin bir hissəsi kimi deyil, həm də beynəlxalq əlaqələrdə əhəmiyyətli bir ünsiyyət vasitəsi olaraq önəm qazanır. Dil yalnız mədəniyyətin və kimliyin ifadə vasitəsi kimi deyil, həm də qlobal kommunikativ məkanın tərkib hissəsi kimi çıxış edir. İnsanların həyat ritmi və peşə fəaliyyətləri, müxtəlif dilləri öyrənmək və onlardan ünsiyyətdə istifadə etmək zərurətini gündəmə gətirir. Bu baxımdan, xarici dillərin rolu getdikcə daha əhəmiyyətli olur. Bu kontekstdə alman dili

Avropanın və dünyanın müxtəlif siyasi, iqtisadi və mədəni sferalarında xüsusi rol oynayır. Almaniya və Avstriya kimi almandilli ölkələrin beynəlxalq arenada güclü mövqeləri sayəsində alman dili, Avropa İttifaqı başda olmaqla, bir sıra beynəlxalq təşkilatların əsas dillərindən birinə çevrilib.

**MÜZAKİRƏ**

***Alman dilinin tarixi inkişafı*** Avropa mədəniyyəti və siyasətindəki dəyişikliklərlə sıx bağlıdır. Müasir alman dili qədim qəbilə dillərindən tədricən inkişaf edərək Avropanın və dünyanın əsas dillərindən birinə çevrilmişdir *(Peter, 2007)*. Bu dilin inkişafı və genişlənmə potensialı, həm Almaniya və Avstriya kimi ölkələrdə, həm də Avropa İttifaqı daxilində və beynəlxalq arenada təsirini davam etdirir. Bu proses qədim alman qəbilələrinin danışıqlarından başlayaraq müasir standart alman dilinin formalaşmasına qədər müxtəlif mərhələləri əhatə edir *(Krumm, 2009)*:

*Ən qədim dövr (e.ə. 500 - e.ə. 750).* Alman dilinin tarixi inkişafı təxminən e.ə. 500-cü ildən, alman qəbilələrinin Avropada meydana çıxmağa başlaması ilə başlayır. Bu dövrdə danışılan dil "Qədim Alman Qərb Ləhcələri" adlanır və o dövrün dillərindən fərqli idi. İndiki alman dili bu qədim german dillərindən tədricən formalaşıb.

*Qədim yüksək Alman dövrü (750 - 1050).* Bu dövrdə alman dilində əsas dəyişikliklər meydana gəldi və lüğət, qrammatika baxımından fərqli ləhcələr ortaya çıxdı. Alman dilindəki ilk yazılı mənbələr də bu dövrə aiddir, və bu mətnlər əsasən dini mövzularda yazılmışdır. Bu dövrün sonunda, ləhcə fərqləri daha da kəskinləşdi və bu, indiki alman dilinin regional ləhcələrinin yaranmasına səbəb oldu.

*Orta yüksək Alman dövrü (1050 - 1350).* Bu dövr alman dilinin ədəbi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, "Nibelungenlied" kimi məşhur epik əsərlər bu dövrdə yazılmışdır. Ləhcələr arasında fərqlər çoxalsa da, alman dili o dövrün ədəbiyyatında əsas ünsiyyət vasitəsi kimi geniş istifadə olunmağa başladı.

*Orta Alman dövrü (1350 - 1650).* Orta alman dövründə dili inkişaf etdirən ən böyük hadisə Martın Lüterin Bibliyanı alman dilinə tərcümə etməsi idi (1522). Bu tərcümə alman dilində standartlaşma prosesini başlatdı və müxtəlif alman ləhcələrinin vahid bir dil kimi formalaşmasına təkan verdi. Lüterin tərcüməsi həm yazılı dilin, həm də ümumi savadlılığın artmasına böyük təsir göstərdi.

*Yeni yüksək Alman dövrü (1650 - indiki dövr).* Bu tarixi dövrləşmədə, xüsusilə XVIII əsrdə dilin tərzi sadələşdirildi, ədəbiyyat və fəlsəfi əsərlər daha çox alman dilində yazılmağa başlandı. İohann Volfqanq von Göte və

Fridrix Şiller kimi böyük ədiblər alman ədəbiyyatını inkişaf etdirərək dili daha geniş dairələrdə populyarlaşdırdılar. Bu dövrdə alman dili elm, təhsil və siyasətdə geniş yer aldı və rəsmi standart dil kimi qəbul edildi.

*Müasir dövr (XX əsrdən bu yana).* XX əsrdə alman dili daha çox standartlaşdı və yazılı dildə sadələşdirilmə prosesi baş verdi. Bu dövrdə alman dili qloballaşma, müasir texnologiya və kommunikasiya vasitələrinin təsiri ilə təkamül etdi. Alman dili Avropa İttifaqında və bir çox beynəlxalq təşkilatlarda rəsmi dil kimi tanındı. Eyni zamanda, media və texnologiya vasitəsilə alman dili daha da geniş yayıldı.

***Alman dilinin xüsusiyyətləri***

Alman dilinin geniş yayılması, zəngin tarixi və mədəniyyəti ilə diqqət çəkən bir dildir. O, Qərbi German dilləri qrupuna aiddir və dünya miqyasında milyonlarla insan tərəfindən ana dil kimi danışılır. Alman dilinin əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

❖ Alman dilinin qrammatikası mürəkkəbdir. İsimlərin, sifətlərin, zərflərin və fellərin müxtəlif şəkil və formaları var. Cümlədə sözlərin sırası dəyişə bilər ki, bu da cümlənin mənasını dəyişir. Məsələn, “Ich gehe ins Kino” (Mən kinoya gedirəm) və “Ins Kino gehe ich” (Kinoya gedirəm) eyni mənanı ifadə edir, lakin vurğu fərqlidir.

❖ İsimlər üç cinsə (kişilərə, qadınlara və neytral) malikdir. Eyni zamanda, alman dilində dörd hal (nominativ, akuzativ, dativ, genitiv) vardır ki, bu da isimlərin və sifətlərin formalarını dəyişdirir.

❖ Alman dili zəngin lüğətə sahibdir və yeni terminlərin yaradılması üçün geniş imkanlar təqdim edir. Bir çox termin, digər dillərdən (məsələn, ingilis və fransız dillərindən) alınmışdır. Alman dilində eyni mənaya gələn bir çox sinonim vardır, bu da danışıqda ifadələrin daha rəngarəng olmasına imkan tanıyır.

❖ Alman dilində vurğu əhəmiyyətlidir və adətən ilk hecaya düşür. Lakin bəzi istisnalar da mövcuddur. Dilin tələffüzündə konsonantlar və vokallar arasında uyğunluq mövcuddur. Məsələn, “ei” səsi “ay” kimi tələffüz olunur. Alman dilində müxtəlif dialektlər vardır (məsələn, Bavariya, Saksoniya, Şimal Alman dialekti), bu da tələffüzdə fərqliliklər yaradır.

❖ Cümlələrdə fel, müsbət, mənfi və sual cümlələrinin quruluşu dəyişə bilər. Felin yeri cümlənin növünə görə dəyişir. Alman dilində idiomlar (söz birləşmələri) geniş yayılmışdır. Bu ifadələr dilin daha ifadəli və rəngarəng olmasına kömək edir. Qloballaşma və müasir texnologiyanın təsiri ilə alman dili ingilis dilindən bir çox yeni terminləri qəbul edib. Bu, xüsusilə texnologiya, elm və iş dünyasında özünü göstərir.

❖ Alman dili qrammatikasının mürəkkəbliyi ilə yanaşı, fonetikası və tələffüzü ilə də öyrənənlər üçün çətinlik yarada bilər. Lakin, dilin strukturunun müntəzəm olması, öyrənmə prosesini asanlaşdırır.

❖ Alman dili bir çox ölkədə ikinci dil kimi tədris olunur, bu da onun qlobal əhəmiyyətini artırır. Alman dili latın əlifbası ilə yazılır. Sözlər arasında boşluq qoyulur, ancaq bəzi xüsusi vəziyyətlərdə (birləşmiş sözlər) yazılma qaydaları fərqli ola bilər. İsimlər, adlar və əhəmiyyətli sözlər böyük hərflə yazılır. Bu alman dilinin xüsusiyyətlərindən biridir.

❖ Alman dili özünün zəngin qrammatikası, geniş lüğəti, fonoloji xüsusiyyətləri və ifadə zənginliyi ilə diqqət çəkir. Bu dil müasir cəmiyyətdə əhəmiyyətini qoruyub saxlayaraq, elm, mədəniyyət, iqtisadiyyat və beynəlxalq əlaqələr sahələrində geniş istifadə olunur. Almanca öyrənmək istəyənlər üçün bu xüsusiyyətlər, dilin daha dərindən başa düşülməsinə kömək edir.

***Almaniyanın dünya siyasətindəki mövqeyi***

Almaniyanın dünya siyasətindəki mövqeyi, onun güclü iqtisadiyyatı, diplomatik əlaqələri, beynəlxalq təşkilatlardakı fəaliyyəti, sülh əməliyyatları və iqlim dəyişikliyi sahəsindəki liderliyi ilə formalaşır. Bu aspektlər, Almaniyanı qlobal məsələlərin həllində aktiv iştirakçı və beynəlxalq siyasətdə güclü bir oyunçuya çevirir. Almanya sülh, təhlükəsizlik və inkişaf yönündəki təşəbbüslərlə dünya səhnəsindəki mövqeyini daha da gücləndirir. Almaniyanın beynəlxalq siyasətdəki güclü mövqeyini təsdiqləyən başlıca faktorlar aşağıdakılar *(Schmidt, 2015)*:

- Almaniya, Avropanın ən böyük iqtisadiyyatı olaraq Aİ daxilində mühüm bir rol oynayır. Güclü sənaye sektoru alman istehsalının keyfiyyəti və beynəlxalq ticarət müsbət göstəriciləri, onun qlobal iqtisadiyyatda əhəmiyyətli mövqeyini gücləndirir. Almaniya maliyyə bazarlarında stabil bir nüfuz qazanmışdır və bu, ona beynəlxalq maliyyə məsələlərində müsbət təsir göstərməyə imkan tanıyır.

- Almaniya Avropa İttifaqının (Aİ) mühüm bir üzvü və lideridir. Aİ-nin siyasi və iqtisadi strategiyalarının formalaşmasında almaniyanın rolu əhəmiyyətlidir. Məsələn, Avrozonanın sabitliyi və böhran dövründəki dəstəkləri, almaniyanın beynəlxalq siyasətdəki mövqeyini gücləndirmişdir. O, BMT, NATO, G7 və G20 kimi beynəlxalq təşkilatlarda aktiv iştirak edir. Bu onun beynəlxalq müzakirələrdə və qlobal problemlərin həllindəki təsirini artırır.

- Almaniya BMT sülh əməliyyatlarında iştirak edir və münaqişələrin diplomatik yollarla həllinə yönəlmiş səylərdə fəal rol oynayır. Məsələn, Cənubi Sudan və Kosovo kimi bölgələrdə alman əsgərləri sülh

missiyalarında fəaliyyət göstərmişdir. Almaniya, münaqişələrin diplomatik yollarla həllində aktivdir. Məsələn, Ukrayna münaqişəsi ilə bağlı Minsk Sazişindəki iştirak, almaniyanın diplomatik təsirini göstərir.

- İnkişaf etməkdə olan ölkələrə geniş humanitar yardım və inkişaf proqramları ilə dəstək verir. Bu, Almaniyanın beynəlxalq münasibətlərdə müsbət imicini gücləndirir. Mülkiyyət və İqtisadi İnkişaf proseslərinə dəstək verərək, regional stabilliyin artırılmasına çalışır. Almaniya, qlobal iqlim dəyişikliyi ilə mübarizədə liderlik edir. Paris İqlim Sazişinin imzalanmasında öncülük etmişdir və iqlim dəyişikliklərinin qarşısının alınması üçün beynəlxalq müzakirələrdə iştirak edir. Bu, onun beynəlxalq müstəvidəki reputasiyasını artırır.
- Almaniya mədəniyyət və elmin yayılmasında aktiv rol oynayır. Alman dili və mədəniyyəti, dünya miqyasında geniş yayılmışdır. Elmi tədqiqatlar və akademik mübadilələr, almaniyanın beynəlxalq əlaqələrini gücləndirir.

***Qlobal miqyasda alman dilinin təsiri və inkişaf meylləri***

Almaniyanın inkişaf meylləri iqtisadiyyat, siyasət, cəmiyyət və texnologiya sahələrində baş verən dəyişikliklər və tendensiyalarla bağlıdır. Almaniya, Avropanın ən güclü iqtisadiyyatına sahibdir və dünya üzrə də mühüm iqtisadi oyunçulardan biridir. İqtisadiyyatın əsasını istehsal, mühəndislik, avtomobil istehsalı və yüksək texnologiyalı sahələr təşkil edir. Almaniya, beynəlxalq investisiyaları cəlb etməyi davam etdirir. Yerli və xarici sərmayələr, iqtisadi infrastrukturun modernləşdirilməsi və yeni iş yerlərinin yaradılması üçün mühüm rol oynayır. Almaniya, rəqəmsal transformasiyaya investisiyalarını artırır. Rəqəmsal infrastrukturun inkişafı, müasir istehsal texnologiyalarının tətbiqi və rəqəmsal xidmətlərin genişləndirilməsi ön plandadır. Almaniya, tədqiqat və inkişaf (T&R) sahəsində dünyanın öncül ölkələrindən biridir. Mühəndislik, avtomobil texnologiyası, bərpa olunan enerji və biotexnologiya kimi sahələrdə aparıcı şirkətlər və universitetlər innovativ həllər təqdim edir *(Wolfgang, 2018)*.

Alman dili, 120 milyondan çox insan tərəfindən Avstriya, Almaniya, İsveçrə, Lixtenşteyn, Lüksemburq, Belçikanın bəzi hissələri, İtaliyanın şimal bölgəsi və Fransanın şərqində danışılır. Avropa İttifaqında və Şərqi ilə Mərkəzi Avropa ölkələrində bu dilin əsas dil kimi rolu iqtisadi baxımdan getdikcə daha da önəmli olur. Eyni zamanda alman dilinə beynəlxalq aləmdə də böyük maraq var. ZAF (Təhsil və Təlim Mərkəzi) tərəfindən edilən bir araşdırmaya əsasən 2015-ci ildə təxminən 15,4 milyon insan məktəblərdə, universitetlərdə və dil institutlarında alman dili dərsləri alıb.

Bu beş il əvvəlki dövrlə müqayisədə, təxminən yarım milyon daha çox insanın alman dili öyrənməyə başladığını göstərir *(Alman, 2023)*.

Alman dili qlobal miqyasda bir çox sahələrdə, xüsusilə iqtisadiyyat, təhsil, mədəniyyət, diplomatiya və texnologiya sahələrində əhəmiyyətli təsir göstərir. Bu dilin zəngin tarixi, mədəni irsi və müasir cəmiyyətdəki rolu, onun dünya miqyasında güclü bir dildir. Onun qlobal miqyasda təsiri bir çox amillərlə bağlıdır. Almaniya, Avropanın ən böyük iqtisadiyyatına sahibdir və qlobal iqtisadi arenada mühüm rol oynayır. Bu, alman dilinin iş dünyasında geniş istifadə olunmasına gətirib çıxarır. Beynəlxalq şirkətlər, xüsusən mühəndislik, avtomobil istehsalı və yüksək texnologiya sahələrində alman dilində fəaliyyət göstərir.

Alman dilində danışıqlar və müqavilələr bir çox ölkədə alman dilini bilən mütəxəssislərə ehtiyacı artırır. Almaniyanın ticarət tərəfdaşları arasında əhəmiyyətli yer tutması, alman dilinin qlobal ticarət mühitindəki rolunu gücləndirir.

Almaniya dünya üzrə ali təhsil sistemində önəmli bir mərkəzdir. Bir çox beynəlxalq tələbə alman dilində təhsil almaq üçün Almaniyaya gəlir. Bu, alman dilinin beynəlxalq təhsil mühitindəki mövqeyini artırır.

Alman dilində dərc olunan elmi jurnallar və kitablar mühüm tədqiqat sahələrində, xüsusən mühəndislik, fizika və sosial elmlərdə geniş tanınır. Bu, alman dilinin qlobal elmi cəmiyyət içindəki rolunu möhkəmləndirir.

Alman dili ədəbiyyat, fəlsəfə, musiqi və incəsənət sahələrində zəngin bir irsə malikdir. Dünyaca məşhur alman yazıçıları (məsələn, İohann Volfqanq von Göte, Fridrix Şiller) və musiqiçiləri (məsələn, Bethoven, Vaqner) alman dilində əsərlərini yaratmışdır. Bu, alman dilinin mədəniyyət sahəsindəki( kinə və teatrda)  təsirini artırır və mədəni mübadiləsindəki rolunu gücləndirir.

Alman dili Avropa İttifaqının rəsmi dillərindən biridir. Bu, alman dilinin beynəlxalq siyasət və diplomatiya sahəsindəki təsirini artırır. Bir çox beynəlxalq təşkilatda (BMT, NATO, OECD) alman dili müzakirələrdə istifadə edilir, bu da onun beynəlxalq arenada təsirini artırır *(Klaus, 2010)*.

Almaniyanın texnologiya sahəsindəki inkişafları, alman dilinin qlobal miqyasda geniş yayılmasına kömək edir. Bir çox proqram təminatı və texnoloji terminlər alman dilində təqdim olunur. Almaniya, xüsusilə Berlindəki startap ekosistemləri, alman dilinin yeni terminlərin yaranmasına və müasir innovasiyaların təqdim olunmasına imkan tanıyır.

Alman dili turistlər üçün geniş məlumat mənbələrində və bələdçi xidmətlərində istifadə olunur. Almaniya, Avstriya və İsveçrə turizm baxımından populyar mərkəzlərdir və bu, alman dilinin qlobal turizm

sahəsindəki rolunu artırır. Alman dili, dünya miqyasında yaşayan alman icmaları vasitəsilə də genişlənir. Bu icmalar, alman dilinin və mədəniyyətinin qorunmasına və yayılmasına kömək edir.

***Alman dilinin inkişaf meylləri***

Alman dilinin inkişaf meylləri qlobalizasiya, texnoloji irəliləyişlər, mədəniyyət mübadilələri, sosial dəyişikliklər və akademik tədqiqatlar ilə formalaşır. Bu meyllər alman dilinin dinamikliyini və müasir dövrdəki əhəmiyyətini artırır. Dilin müasir kontekstdə inkişafı onu daha geniş auditoriya üçün əlçatan edir və gələcək nəsillərə ötürülməsinə kömək edir. Alman dilinin inkişaf meylləri onun tarixi, sosial, iqtisadi və mədəni kontekstlərdəki dəyişikliklərə uyğun olaraq formalaşır. Bu meyllər dilin leksik, qrammatik və fonetik səviyyələrində özünü göstərir. Aşağıda alman dilinin inkişaf meylləri ətraflı şəkildə təhlil olunur:

- Alman dili qlobal miqyasda, xüsusilə Avropada mühüm bir dil olaraq tanınır. Alman dilini öyrənən insanların sayı artır, bu da dilin beynəlxalq müstəvidəki təsirini artırır;
- Almaniyanın güclü iqtisadiyyatı alman dilini biznes və ticarət mühitində əhəmiyyətli bir dil halına gətirir. Alman şirkətləri beynəlxalq bazarlarda fəaliyyət göstərdikcə, alman dilinin önəmi də artır. Rəqəmsal platformalarda alman dilinin istifadəsi artmaqdadır. Sosial media, onlayn təhsil və digər rəqəmsal kanallar vasitəsilə alman dilinin öyrənilməsi daha asanlaşır;
- Alman dilinin müasir dil texnologiyaları, məsələn, tərcümə proqramları, dil öyrənmə tətbiqləri və səs tanıma sistemləri vasitəsilə inkişaf edir. Bu, dilin müasir dövrdəki istifadəsini asanlaşdırır;
- Alman dili ədəbiyyat, kino, musiqi və digər mədəniyyət sahələrində geniş yayılır. Alman ədəbiyyatı və sənətinin beynəlxalq səviyyədə tanınması, alman dilinə marağı artırır.Alman mədəniyyətinin tanıdılması üçün müxtəlif dil proqramları və mübadilə proqramları təşkil olunur. Bu, dilin öyrənilməsinə stimul yaradır.

Miqrasiya və multikulturalizmin artması alman dilində yeni leksik formaların yaranmasına səbəb olur. Müxtəlif mədəniyyətlərdən gələn insanlar alman dilinə öz dillərindən sözlər, ifadələr və mülahizələr əlavə edirlər.

Alman dilinin inkişafında mədəni inteqrasiya mühüm rol oynayır. Müxtəlif cəmiyyətlərdə alman dilinin istifadəsi, dilin dinamikliyini artırır. Alman dilinin inkişafı, dilçilik, antropologiya və digər elmlər vasitəsilə tədqiq edilir. Bu, dilin leksik, qrammatik və sintaktik strukturlarının daha yaxşı anlaşılmasına kömək edir.

Dil tədqiqatçıları alman dilinin inkişaf meyllərini, dəyişikliklərini və istifadəsini öyrənərək dilin gələcəyini proqnozlaşdırmağa çalışırlar.

Hazırda Almaniya hökuməti, digər inkişaf etmiş ölkələr kimi, Alman dilinin sosial mediada istifadəsini artırmaqda maraqlıdır. Bu da internetdə alman dilində məzmun istehsalı, dilin yeni formalarının yaranmasına, həmçinin gənc nəsil arasında dilin yayılmasına səbəb olur. Təbliğat nəticəsində gənclərin alman dilinə marağı artmaqdadır, bu da dilin müasir formalarının və ifadələrinin inkişafına təkan verir.

**NƏTİCƏ**

Müasir siyasi cəmiyyətdə alman dilinin rolu və inkişaf meylləri, dilin yalnız bir kommunikasiya vasitəsi olaraq deyil, eyni zamanda mədəniyyət, identiklik və siyasi proseslərdə mühüm bir element kimi qəbul edilməsini tələb edir. Alman dili Avropanın mərkəzində yerləşən bir dil olaraq, bir çox ölkədə rəsmi və ikinci dil statusuna malikdir. Bu, dilin beynəlxalq əlaqələrdəki, eləcə də iqtisadi və siyasi münasibətlərdəki əhəmiyyətini artırır.

Alman dilinin siyasi cəmiyyətdəki rolu, dilin tədrisi və istifadəsinin artırılması ilə paralel olaraq inkişaf edir. Müasir dövrdə alman dilinin siyasi mühitdə daha geniş yayılması, dilin təhsildə, mediada və ictimai müzakirələrdə aktiv istifadəsi ilə mümkün olur. Bununla yanaşı, alman dilinin qlobal miqyasda yayılması, beynəlxalq təşkilatların, universitetlərin və elmi mərkəzlərin fəaliyyətləri ilə daha da güclənir.

Eyni zamanda müxtəlif etnik və mədəni qrupların bir arada yaşadığı cəmiyyətlərdə alman dilinin öyrənilməsi sosial inteqrasiyanı dəstəkləyir və mədəni müxtəlifliyi artırır. Bu, siyasi proseslərin demokratikləşməsinə və vətəndaş cəmiyyətinin inkişafına müsbət təsir göstərir.

Beləliklə, müasir siyasi cəmiyyətdə alman dilinin rolu yalnız dilin özündə deyil, eyni zamanda onun cəmiyyətin inkişafında, siyasi münasibətlərin gücləndirilməsində də öz təsirini göstərir. Bu səbəbdən gələcəkdə alman dilinin tədrisi və istifadəsinin artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, eyni zamanda dilin siyasi və mədəni kontekstdəki yerinin daha da möhkəmləndirilməsi Alman hökumətinin vacib məsələlərindən hesab edilir.

## ƏDƏBİYYAT

*Peter, A. (2007).* Deutsch: Eine Theorie der modernen Sprache. Berlin: De Gruyter, 288 s.

*Klaus, V.B. (2010).* Politische Sprache und Kommunikation: das deutsche Beispiel. Berlin: Springer, 325 s.

*Schmidt, R.F. (2015).* German language and politics: a contemporary context. London: Routledge, 240 s.

*Wolfgang, G.S. (2018).* Language, politics and identity: the context of German society. London: Palgrave Macmillan, 304 s.

*Krumm, Hans-Jürgen. (2009).* Development of the German language: history and modern use. Oxford University Press, 272 s.

*Alman dili haqqinda 5 inanılmaz fakt. (2023).* İstifadə edilmişdir: 12 mart, 2024 (https://mediline.az/alman-dili-haqqinda-5-inanilmaz-fakt).

**Jala Tofig gizi Abdullayeva**
*Azerbaijan University of Languages, lecturer*
***E-mail:*** jalaadu25@gmail.com
*https://orcid.org/0000-0002-3744-6562*

## THE ROLE AND DEVELOPMENT TRENDS OF THE GERMAN LANGUAGE IN MODERN POLITICAL SOCIETY

***Abstract:*** *This article examines the role of the German language in modern political society and its development trends. It analyzes the significance of German in the global political arena and in the social life of various countries. The article discusses the influence of German, particularly within the European Union and other international organizations, highlighting its impact across diplomacy, economics, and culture. Additionally, it explores German's interactions with other languages and its expansion potential through modern technology, media, and education.*

***Keywords:*** *German language, political society, language development trends, global language policy, European Union, diplomacy.*

**Жаля Тофик кызы Абдуллаева**
*Азербайджанский университет языков, преподаватель*
***Электронная почта:*** jalaadu25@gmail.com
*https://orcid.org/0000-0002-3744-6562*

# РОЛЬ И ТЕНДЕНЦИИ РАЗВИТИЯ НЕМЕЦКОГО ЯЗЫКА В СОВРЕМЕННОМ ПОЛИТИЧЕСКОМ ОБЩЕСТВЕ

***Резюме:*** *В статье исследуется роль немецкого языка в современном политическом обществе и его тенденции развития. Анализируется значимость немецкого языка на глобальной политической арене и в общественной жизни различных стран. Особое внимание уделено влиянию немецкого языка в Европейском Союзе и других международных организациях, а также его воздействию в таких сферах, как дипломатия, экономика и культура. Кроме того, рассматривается взаимодействие немецкого языка с другими языками и потенциал его расширения посредством современных технологий, средств массовой информации и образования.*

***Ключевые слова:*** *Немецкий язык, политическое общество, тенденции развития языка, глобальная языковая политика, Европейский Союз, дипломатия.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 15.03.2024; çapa qəbul edilib – 14.04.2024.



# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

*"Kitabxana.az" jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:*

1. Məqalənin adı, müəllifin adı və soyadı, çalışdığı qurum, vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı və ORCID (2012-ci ildən bəri beynəlxalq elm aləmində qəbul edilmiş internetdə hərkəsə açıq olan Tədqiqatçı və İştirakçı Eyniləşdiricisi) göstərilməlidir.
2. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul olunur.
3. Məqalə 50 sözdən artıq olmayan xülasəyə, 4-dən az olmayan açar sözə malik olmalıdır.
4. Məqalə A4 formatında, Microsoft Word proqramında (şrift - Times New Roman – 12; interval - 1,5; səhifənin parametrləri: yuxarıdan – 2 sm, aşağıdan – 2 sm, soldan - 2,5 sm, sağdan – 2,5 sm) yığılmalıdır.
5. Əgər mətndaxili sitatlar təkmüəllifli əsərə istinad edirsə: Müəllifin soyadı (insialsız) və nəşr ili kursivlə qeyd olunmalıdır, məsələn, *(Əliyev, 2020)*.
   Mətndaxili sitatlar ikimüəllifli əsərə istinad edirsə: Hər iki müəllifin soyadı və nəşr ili kursivlə yazılmalıdır, məsələn, *(Əliyev & Məmmədov, 2021)*.
   Çoxmüəllifli əsərə istinad olunursa: Əgər əsərin ikidən çox müəllifi varsa, kursivlə birinci müəllifin soyadı, ardınca isə "et al." (lat. və digərləri) qeyd olunmalıdır, məsələn, *(İslamova et al., 2022)*.
6. Ədəbiyyat (istinad) siyahısında son 5-10 il ərzində nəşr olunmuş elmi əsərlərə istinad edilməsi tövsiyə olunur.
   İstinad siyahısı Amerika Psixoloji Assosiasiyasının (APA) üslublu sənəd təsviri qaydalarına uyğun hazırlanmalıdır.
   İstinad siyahısı əlifba sırası və yaxud istifadə olunma ardıcıllığına görə sıralanmalıdır.
7. Jurnala təqdim olunan məqalələr:
   - əvvəllər dərc olunmamalı;
   - heç bir digər jurnala dərc olunmaq üçün təqdim edilməməlidir.
8. Məqalənin dərc olunmaq üçün qəbul edilib-edilməməsi məsələsi redaksiya heyətinin müzakirəsindən sonra bəlli olur.
9. Əlyazmanın məzmunu və yazılışı üçün yalnız müəlliflər cavabdehlik daşıyırlar.
10. Müəlliflər məqalələri elektron şəkildə shafaq.ace@gmail.com ünvanına göndərə bilərlər.

## ATTENTION TO AUTHORS!

*Scientific articles submitted to the editorial office of the journal "Kitabxana.az" must be compiled taking into account the following rules:*

1. It is necessary to indicate the title of the article, the first and last name of the author, institution, position, academic degree, e-mail address and ORCID.
2. The article is accepted in Azerbaijani, English and Russian.
3. The article should contain an abstract of no more than 50 words and no less than 4 keywords.
4. The article should be written in A4 format, in Microsoft Word (font - Times New Roman - 12; spacing - 1.5; page settings: top - 2 cm, bottom - 2 cm, left - 2.5 cm, right - 2.5 cm).
5. If in-text citations refer to a single author: The author's last name (without initials) and year of publication should be written in italics, e.g., *(Aliyev, 2020)*.
   Two authors: Both authors' last name and year of publication should be written in italics, e.g., *(Aliyev & Mammadov, 2021)*.
   More than two authors: If the reference has more than two authors, the first author should be listed in italics, followed by "et al.", e.g., *(Islamova et al., 2022)*.
6. It is recommended to indicate scientific works published in the last 5-10 years in the list of references.
7. Articles submitted to the journal:
   - earlier should not be published anywhere;
   - should not be submitted for publication in any other journal.
8. The issue of accepting an article for publication becomes clear after discussion by the editorial board.
9. The authors are solely responsible for the content and writing of the manuscript.
10. Authors may submit articles electronically to shafaq.ace@gmail.com.

## ВНИМАНИЕ АВТОРАМ!

*Научные статьи, представляемые в редакцию журнала «Kitabxana.az», должны быть составлены с учетом следующих правил:*

1. Необходимо указать название статьи, имя и фамилию автора, учреждение, должность, ученую степень, адрес электронной почты и ORCID (открытый для всех в интернете Идентификатор Исследователя и Участника, принятый в международном научном мире с 2012 г.).
2. Статья принимается на азербайджанском, английском и русском языках.
3. В статье должно быть резюме не более 50 слов и не менее 4 ключевых слов.
4. Статья должна быть написана в формате А4, в программе Microsoft Word (шрифт - Times New Roman - 12; интервал - 1,5; параметры страницы: сверху - 2 см, снизу - 2 см, слева - 2,5 см, справа - 2,5 см).
5. Если внутритекстовые цитаты относятся к одному автору: Фамилия автора (без инициалов) и год публикации должны быть написаны курсивом, например, *(Алиев, 2020)*.

   Два автора: Фамилия обоих авторов и год публикации должны быть написаны курсивом, например, *(Алиев & Мамедов, 2021)*.

   Более двух авторов: Если в ссылке более двух авторов, курсивом следует указать первого автора, а затем «et al.» (лат. и др.), например, *(Исламова et al., 2022)*.
6. Рекомендуется указывать в списке литературы научные работы, опубликованные за последние 5-10 лет.

   Список литературы должен быть подготовлен в соответствии с правилами описания документов в стиле «APA», разработанными Американской психологической ассоциацией.

   Список литературы должен быть составлен в алфавитном порядке или в порядке использования.
7. Статьи, представленные в журнал:
   - ранее нигде не должны быть опубликованы;
   - не должны быть представлены для публикации в какой-либо другой журнал.
8. Вопрос о принятии статьи к публикации становится ясным после обсуждения на редколлегии.

9. Авторы несут полную ответственность за содержание и написание рукописи.
10. Авторы могут отправлять статьи в электронном виде по адресу shafaq.ace@gmail.com.

# M Ü N D Ə R İ C A T

==================================================

## *KİTABXANA İŞİNİN TARİXİ*

**Şəfəq İSLAMOVA**
Xarici ictimai kitabxanaların sosial-iqtisadi inkişafda rolu və təsiri ...... 5

## *KİTABŞÜNASLIQ VƏ NƏŞRİYYAT İŞİNİN TARİXİ*

**Sevda QULİYEVA**
Ömrünü kitaba və kitabçılıq işinə həsr edən alim................................. 19

## *HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ*

**Kamran ABDULLAYEV**
Azərbaycan Respublikasının nəqliyyat-logistika xidmətləri sektorunda dövlət-özəl tərəfdaşlığının səmərəliliyinin artırılması istiqamətləri.......................................................................... 26
**Konül MƏMMƏDOVA**
Postkonflikt ərazilərdə sosial infrastrukturun yenidən qurulması və regionların bərpası......................................................................... 36
**Elmaz UZUN**
Qida istehsalı sahəsində klasterlərin yaradılması imkanları ................. 51
**Jalə ABDULLAYEVA**
Alman dilinin müasir siyasi cəmiyyətdə rolu və inkişaf meyilləri ....... 62

# C O N T E N T S


*HISTORY OF LIBRARIANSHIP*

**Shafag ISLAMOVA**
Role and impact of foreign public libraries on socio-economic development ................................................................................ .......5

*HISTORY OF BIBLIOLOGY AND PUBLISHING*

**Sevda GULIYEVA**
A scientist who devotes his life to books and bookwork...................... 19

*HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES*

**Kamran ABDULLAYEV**
Directions for increasing the efficiency of public-private partnership in the sector of transport and logistics services of the Republic of Azerbaijan ................................................................................. 26
**Konul MAMMADOVA**
Reconstructıon of social infrastructure and rehabilitation of regions in post-conflict territories...................................................................... 36
**Elmaz UZUN**
Possibilities for creating clusters in the food production sector ........... 51
**Jala ABDULLAYEVA**
The role and development trends of the German language in modern political society ............................................................................. 62

# С О Д Е Р Ж А Н И Е

## *ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА*

**Шафаг ИСЛАМОВА**
Роль и влияние зарубежных общественных библиотек в социально-экономическом развитии ........................................ 5

## *ИСТОРИЯ КНИГОВЕДЕНИЯ И ИЗДАТЕЛЬСКОГО ДЕЛА*

**Севда КУЛИЕВА**
Ученый, посвятивший свою жизнь книгам и книжному делу ....... 19

## *ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК*

**Кямран АБДУЛЛАЕВ**
Направления повышения эффективности государственно-частного партнерства в секторе транспортно-логистических услуг Азербайджанской Республики ........................................ 26
**Конуль МАМЕДОВА**
Восстановление социальной инфраструктуры и реабилитация регионов в постконфликтных территориях ............................ 36
**Эльмаз УЗУН**
Возможности создания кластеров в сфере производства пищевых продуктов ........................................................ 51
**Жаля АБДУЛЛАЕВА**
Роль и тенденции развития Немецкого языка в современном политическом обществе ................................................ .62

# KİTABXANA.AZ

elmi-nəzəri və təcrübi jurnal

***2024, Aprel, №1(40)***

* * *

**VÖEN:** 1600740921

**Təsisçi  və baş redaktor:** İslamova Şəfəq İsrafil qızı

**Redaktor:** Məmmədov Eldəniz Elman oğlu

**Redaksiyanın ünvanı:** AZ1096, Bakı ş., K.Balakişiyev küç. 161/15

**Tiraj:** 100 nüsxə

**Qiyməti:** Pulsuz